Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 130 (7857) BAZAR, 10 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymәti 40 qәpik





# Köhnə qitənin yeni enerji damarı

## İlham Əliyevin siyasi qətiyyəti sayəsində ərsəyə gələn "Cənub qaz dəhlizi" Azərbaycanı dünyanın mühüm qaz ixracatçılarından birinə çevirir

May ayının 28-də müstəqilliyinin 100 illiyini qeyd edən Azərbaycan dövlətinin şanlı tarixinə bir gün sonra daha bir əlamətdar hadisə qızıl hərflərlə yazıldı. 29 may təqvimi tariximizə "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi kimi düşdü. Bakıda keçirilən təntənəli mərasimdə "Cənub qaz dəhlizi"nin yaranma səbəbləri, Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyətli mövqe və layihənin Avropanın enerji təhlükəsizliyində oynadığı rol xüsusi vurğulandı. Layihənin açılışı ilə bir daha təsdiq olundu ki, enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrilib.

### Azərbaycan 30-50 milyard dollar gəlir əldə edəcək

Öncə onu vurğulayaq ki, "Cənub qaz dəhlizi" layihəsi enerji təhlükəsizliyi layihəsidir. 40 milyard dollar sərmayə ilə həyata keçirilən, uzunluğu 3 min 500 kilometr və 4 seqmentdən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP) olan bu layihə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri ilə Avropaya çatdıracaq.

Nəhəng layihə ilə Azərbaycan dünyanın sayılan qaz ixracatçılarından biri olacaq. Dünyanın ən böyük qaz layihələrindən biri kimi, bu layihənin icrası ilə Azərbaycan qaz hasilatını ildə 16 milyard kubmetr artıracaq. Sonralar isə bu rəqəm 31 milyard kubmetrə qədər yüksələcək. Layihənin icrası Azərbaycanın karbohidrogen satışından və nəqlindən təxminən 30-50 milyard dollar gəlir əldə etməsinə imkan verəcək.

### 7 Avropa ölkəsi və 9 şirkətlə imzalanan 25 illik sazişlər

"Cənub qaz dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Bununla yanaşı, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Bu, artıq layhənin qlobal xarakter aldığını göstərir.

"Cənub qaz dəhlizi" ilə nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar isə Niderland-Britaniya neft-qaz şirkəti olan "Shell", Bolqarıstanın "Bulgargaz", Yunanıstanın DEPA, Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading SRL", "Enel Trade SpA", "Edison" və İsveçrənin "Axpo Trading AG" şirkətləridir.

Azərbaycanla bu Avropa şirkətləri arasında "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasil ediləcək qazın ildə 10 milyard kubmetrdən bir az artıq olan həcminin satışı üzrə 25 illik sazişlər imzalanıb. Bu şirkətlər hərəsinə təxminən 1 milyard kubmetr olmaqla Bolqarıstan və Yunanıstanı təchiz etmək niyyətində olan alıcılara, qalanı isə İtaliyanı və ona bitişik bazar mərkəzlərini təchiz etmək istəyən alıcılara ötürəcək.

### Ölkəmiz indiyədək "Cənub qaz dəhlizi" layihələrinə 9 milyard dollar xərcləyib

Bakıda keçirilən XXV "Caspian Oil and Gas" konfransında "Cənub qaz dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Əfqan İsayev layihənin maliyyələşməsi məsələsinə aydınlıq gətirərək qeyd edib ki, indiyədək "Cənub qaz dəhlizi"nin tərkibi olan layihələrdə iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar məbləğində investisiya qoyulub.

"Cənub qaz dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi üzrə görüləcək işlərin (ilk qazın hasilatına dair) 99,5 faizi, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) üzrə işlərin 100 faizi, Transanadolu (TANAP) boru kəmərinin inşası üzrə işlərin 93 faizi, Transadriatik (TAP) kəmərinin inşası üzrə işlərin 73 faizi icra edilib.

Ardı 4-cü səh.

# Azərbaycan öz imkanları daxilində qlobal problemlərin həllinə kömək göstərir

## *Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitinin iştirakçılarına*

Hörmətli toplantı iştirakçıları!

Sizi Bakı şəhərində salamlayır, Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının növbəti sammitinin işə başlaması münasibətilə təbrik edirəm.

Avropadakı müxtəlif siyasi partiyaları vahid platformada birləşdirən Alyans nisbətən qısa müddətdə qitənin ictimai-siyasi həyatında mühüm rol oynayan nüfuzlu bir təşkilata çevrilmişdir. Məmnunluq hissi ilə bildirirəm ki, qurumun bəyan etdiyi milli suverenlik, parlament demokratiyası, azad cəmiyyət kimi fundamental dəyərlər zəngin tarixi ənənələri yaşadan Azərbaycan xalqının müasir həyatında əhəmiyyətli yer tutur. Əlamətdar haldır ki, bugünkü sammit də müsəlman dünyasında ilk parlamentli respublikanın, qadınlara əksər Qərb dövlətlərindən daha əvvəl seçki hüququ vermiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş qeyd olunduğu dövrə təsadüf edir.

Xalq Cümhuriyyətinin hüquqi varisi olan Azərbaycan Respublikası müstəqillik illərində bazar iqtisadiyyatı, demokratiya, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu tutmuş, ayrı-ayrı ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quraraq dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilmişdir. Bizim təşəbbüsümüz və yaxından iştirakımızla reallaşan transmilli neft-qaz və nəqliyyat layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına, region ölkələrinin davamlı sosial-iqtisadi inkişafına sanballı töhfələr verir. Mayın 29-da rəsmi açılışı keçirilən "Cənub qaz dəhlizi"nin işə düşməsi isə bu sahədə qazanılmış uğurların daha da artırılması üçün yeni imkanlar yaradacaqdır.

Ardı 2-ci səh.

# Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammiti keçirilib

İyunun 9-da Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammiti keçirilib. AZƏRTAC xəbər verir ki, "Ortaq gələcəyin qurulması" mövzusunda keçirilən sammitdə Avropanın müxtəlif ölkələrindən rəsmi şəxslər, deputatlar, ictimai-siyasi xadimlər, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbirin rəsmi hissəsi Azərbaycan barədə təqdimatla başlayıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlət başçısı İlham Əliyevin Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitinin iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub *(Məktub qəzetin bugünkü nömrəsində dərc olunub).*

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov çıxış edərək Avropanın ən nüfuzlu siyasi qurumlarından biri olan Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının sammitinin Bakıda keçirilməsinin ölkəmizin həyatında əlamətdar hadisə olduğunu deyib. O, burada aparılacaq müzakirələrin Alyansın məqsədlərinin həyata keçirilməsinə kömək edəcəyinə əminliyini bildirib. "Bu gün biz elə bir dünyada yaşayırıq ki, qlobal dəyişikliklər nəticəsində dünyanın siyasi modeli və geosiyasi xəritədə əsas qüvvələrin nisbəti göz önündə dəyişir. Dünya birliyi beynəlxalq terrorizm, təcavüzkar separatizm, qaçqınlar, məcburi köçkünlər, mütəşəkkil cinayətkarlar, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi kimi problemləri, yoxsulluq, iqlim dəyişiklikləri, təbii fəlakətlər, epidemiyalar kimi təhlükələri aradan qaldırmağın səmərəli yollarını tapmaq zərurəti ilə üz-üzə qalıb.

Ardı 3-cü səh.

# İqtisadi siyasətin dəyişməz hədəfi

## *Əhalinin sosial müdafiəsinin gücləndirilməsi bu gün də dövlətin ən çox vəsait ayırdığı sahələrdəndir*

Məlum həqiqətdir ki, Azərbaycan müstəqilliyin bərpasından sonrakı ilk illərdə çətin sosial-iqtisadi problemlərlə qarşılaşmışdı. Həmin dövrdə əhalinin bir hissəsi işləmirdi, işləyənlərin də çoxu aylarla əməkhaqqı ala bilmirdi. Xüsusilə pensiyaların vaxtında verilməməsi sosial cəhətdən ən həssas təbəqə olan insanların vəziyyətini daha da ağırlaşdırmışdı.



Belə çətin bir vaxtda ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Azərbaycanın yeni tarixində təzə bir səhifə açdı. Ulu öndər hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə əhalinin sosial problemlərinin həlli məqsədilə təxirəsalınmaz tədbirlər görməyə başladı. Bu məqsədlə 15 iyun 1994-cü ildə "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" fərman, həmin fərmandan irəli gələn vəzifələri daha operativ yerinə yetirmək üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" sənəd imzaladı.

Bundan sonra əhalinin sosial müdafiəsində sözün həqiqi mənasında böyük dönüş yarandı. Məsələn, bu sənədin icrası nəticəsində 15 oktyabr 1994-cü ildən əməyin ödənilməsinin məbləği o dövrdəki pulla ayda 4000 manat müəyyən edildi. Bununla yanaşı, pensiya, təqaüd və müavinətlərin məbləği əməyin ödənilməsinin minimum məbləğinə uyğunlaşdırıldı, eləcə də sosial və işləməyən pensiyaçılara, ali və orta ixtisas təhsili müəssisələrinin gündüz şöbələrində oxuyan tələbələrə, texniki peşə məktəblərinin şagirdlərinə ayda 3000, eləcə də adambaşına düşən aylıq gəliri minimum əməkhaqqının iki mislindən az olan ailələrdə 16 yaşınadək uşaqların hər birinə ayda 2000 manat məbləğində pul kompensasiyası təyin edildi.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirib. Məsələn, təkcə 1997-ci ildə pensiya qanunvericiliyində edilən dəyişiklikdən sonra 1993-cü ilə qədər təqaüdə çıxmış 650 min vətəndaşın pensiya məbləği 2,2 dəfə artmışdır. Bundan əlavə, əlillərin, tənha, ahıl vətəndaşların və sosial təqaüdçülərin pensiyalarının üzərinə əlavə müavinətlər hesablanmışdır. Həmin dövrdəki pulla bu məqsəd üçün 240 milyard manat xərclənmişdi. 1 avqust 1998-ci ildə pensiyaların yeni hesablama mexanizminin tətbiqi nəticəsində isə şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin pensiyalarının məbləği 2 dəfədən çox artırılmış və buna 170 milyard manat vəsait sərf olunmuşdur.

Ümummilli lider Heydər Əliyev sosial ədalətin qorunmasına da daim diqqət yetirirdi. Məsələn, minimum pensiya ilə daha yüksək pensiya alanlar arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün 1 yanvar 2000-ci ildə 450 min nəfərin pensiyasının minimum məbləğinin 50000 manata çatdırılması məqsədilə dövlət büdcəsindən ayda 5 milyard manat vəsait ayrılmışdır. Həmin ilin noyabr ayından isə sosial pensiyaçılara dövlət qayğısının nəticəsi olaraq onların təqaüdlərinin üzərinə əlavə 10000 manat məbləğində aylıq müavinət hesablanırdı.

Ardı 4-cü səh.

# Tovuzlu kümçülərin builki hədəfi 10 tondur

İpəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi Tovuz rayonunda da baramaçılığın dirçəldilməsinə müsbət təsirini göstərmiş, sakinlərin bu sahəyə marağı xeyli artmışdır.

Keçən il 180 qutu ipəkqurdu bəsləyən rayon kümçüləri 7 tona yaxın barama təhvil vermişlər. Yaxşı qazanc əldə etmələrindən ruhlanan rayon sakinləri bu il 260 qutu ipəkqurdu bəsləyirlər. Məqsəd 10 ton barama istehsal etməkdir. Qaraxanlı, Xatınlı, Hunanlar, Əlimərdanlı, Dondar Quşçu kəndlərinin, eləcə də Qovlar şəhərinin sakinləri daha çox barama istehsal etməyi qarşılarına məqsəd qoymuşlar.

Ümumiyyətlə, Tovuz rayonunda baramaçılıq ənənələrinin bərpa edilməsi üçün mühüm işlər görülür. Əhali əvvəllər də baramaçılıqla məşğul olub, bu sahədən yaxşı qazanıb. Odur ki, bu sahənin yenidən dircəldilməsi kənd sakinlərinin ürəyincədir. Hazırda rayonun 28 kəndində 70-dək ailə baramaçılıqla məşğul olur.

Baramaçılığın inkişaf etdirildiyi kəndlərdən biri Düz Cırdaxandır. Kənd sakini Akif Mehdiyev keçən il ailəsi ilə 2 qutu ipəkqurduya qulluq edib. 100 kiloqramdan çox yaş barama satıb, 900 manat gəlir götürüb.

Söhbət zamanı Akif dedi ki, bu sahənin də özünəməxsus xüsusiyyətləri var. 3 il əvvəl bu işə başlayanda təcrübəsi olanlardan onun xüsusiyyətlərini öyrəndim. İndi müəyyən təcrübəm var. Hər şeydən əvvəl gərək diqqətli olasan. Məsələn, qurd baramanı toxuduqdan sonra içərisində qalandan bir müddət sonra kəpənəyə çevrilib baramanı deşib uçmaq istəyəcək. Barama da deşiləndə keyfiyyəti aşağı düşür. Odur ki, barama vaxtında təhvil verilməlidir ki, buna imkan verilməsin.

Qeyd etdiyimiz kimi, Tovuzda baramaçılığa maraq ildən-ilə artır. Dondar Quşçu kəndinin sakini Validə Qasımova keçən il 1 qutu ipəkqurdu götürərək 60 kiloqram barama təhvil vermişdi. Bu il 2 qutu ipəkqurdu bəsləyir. Qaraxanlı kəndindən Dilbər Müslümova da barama istehsalını iki dəfə artırmağı qarşısına məqsəd qoyub. O da bu il iki qutu ipəkqurduya qulluq edir.

Ardı 4-cü səh.



# Dövlətin dəstəyi və kəndlinin əməyi ölkənin ərzaq təhlükəsizliyinə təminat verir

Bu gün Azərbaycanda həyata keçirilən aqrar islahatların möhkəm təməli ulu öndər Heydər Əliyev tərəfindən hələ 90-cı illərdə qoyulmuşdur.



"Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu 1996-cı ildə qəbul edilsə də, Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi dövrdə - 1992-ci ildə Culfa rayonunun Şurut və Gal kəndlərində kolxozların torpaqları kəndlilərə təmənnasız verilmişdir. Bunu çoxları tarixi və inqilabi hadisə kimi, ulu öndərin özü isə ideal nəticələr verəcək radikal tədbirlər kimi dəyərləndirmiş və "Bu, hələ başlanğıcdır", - demişdir.

Ölkəmizdə aparılan torpaq islahatları tarixə "Heydər Əliyevin torpaq islahatı" kimi təsadüfən düşməyib. Məhz bu islahat dünən kolxozçu olmuş kəndlinin sabahın fermerinə çevrilməsinə zəmin yaratmışdır. Heydər Əliyevin 1993-2003-cü illərdə imzaladığı 50-dən çox fərman, qanun və digər hüquqi normativ aktların hamısı kəndlinin mənafeyinə hesablanmış, onu təkcə torpağının yox, taleyinin sahibi etmişdir. Belə kəndlilərin sayı isə o dövrdə 3,5 milyon nəfər idi.

Bu gün nəhəng aqroparkların yaranmasını labüd edən başlıca amil də məhz yeni fermerlər nəslinin yetişməsi ilə bağlıdır. Kəndlilərin uzun illər ərzində qazandıqları böyük təcrübə və biliklər artıq onlara imkan verir ki, müasir dünyanın aqrar çağırışlarına cavab verən ən yeni aqrar strukturları yaratsınlar.

Bəli, bu gün Azərbaycanda aqroparkların yaradılması istiqamətində ciddi addımlar atılır, böyük investisiyatutumlu layihələr icra edilir, kənd təsərrüfatının müxtəlif istiqamətlərini əhatə edən müasir istehsal sahələri, komplekslər yaradılır. Son illər qazanılan uğurlar belə qənaətə gəlməyə əsas verir ki, bütün bu islahatlar nəticəsiz qalmır. Belə ki, yaradılması nəzərdə tutulan 45 aqroparkdan 4-ü istifadəyə verilmişdir. Ümumilikdə ərazisi 191 min hektar olan aqroparkların yaradılmasına 1,4 milyard manat sərmayə qoyulması nəzərdə tutulmuşdur.

Bir neçə gün əvvəl həmin aqroparklardan biri - "Region Aqropark"ı istifadəyə verildi. Ondan əvvəl isə Yalama, Şəmkir və Cəlilabad rayonlarında aqroparklar fəaliyyətə başlamışdır. Ölkənin kənd təsərrüfatında baş verən bu yeniliklərin mahiyyətini, zəruriliyini anlamaq üçün islahatlara xarici mütəxəssislərin gözü ilə baxmaq lazımdır. May ayının əvvəlində Bakıda keçirilən XXIV Beynəlxalq Qida Sənayesi, XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya sərgilərində rəyini öyrəndiyimiz alimlərin və mütəxəssislərin əksəriyyəti Azərbaycanın aqrosektorunda aparılan islahatları, tətbiq edilən yenilikləri yüksək qiymətləndirir və bizim sahibkarlarla ciddi əməkdaşlıqda maraqlı olduqlarını deyirdilər.

Almaniyanın CIAAS şirkətinin regional ixrac meneceri Vasili Seyderlə də bu barədə danışdıq. Azərbaycanda torpaq paylarının digər ölkələrə nisbətən kiçik olduğunu xatırlatdıq və çıxış yollarını soruşduq. Seyder soyuqqanlı alman məntiqi ilə izah etdi ki, dünyada bütün sahələrdə qloballaşma gedir və bu, aqrar sektordan da yan ötmür: "Az torpaqları olan fermerlərə məhsulun maya dəyəri nisbətən baha başa gəlir, onların iri holdinqlərlə rəqabətdə uduzmasına səbəb olur. Nəhəng holdinqlərin istehsal etdiyi məhsullar daha ucuz başa gəldiyindən kiçik təsərrüfatlar rəqabətdən çəkinirlər.

Ardı 4-cü səh.

# "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2272) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.4-6.7-ci bəndlər əlavə edilsin:

"6.4. "ASK" ASC-nin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi və "ASK" ASC-nin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması səlahiyyətləri "ASK" ASC tərəfindən həyata keçirilir;

6.5. "ASK" ASC-nin fəaliyyət istiqamətləri üzrə satış məqsədilə inşa edilmiş daşınmaz əmlak üzərində sərəncam vermə səlahiyyətləri "ASK" ASC tərəfindən həyata keçirilir;

6.6. "ASK" ASC-nin istehsal-təsərrüfat ehtiyaclarını təmin etmək üçün malların (işlərin, xidmətlərin) satın alınması üzrə əməliyyatlar "ASK" ASC tərəfindən beynəlxalq təcrübəyə və qanunvericiliyin tələblərinə cavab verən daxili prosedurlarına uyğun həyata keçirilir;

6.7. "ASK" ASC-nin mülkiyyətində (balansında) olan dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının tam məbləği onun büdcəsinə daxil edilməklə fəaliyyətinin təmin edilməsinə sərf olunur.";

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. aşağıdakı məzmunda 2.2.36-1 - 2.2.36-3-cü yarımbəndlər əlavə edilsin:

"2.2.36-1. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi və Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması səlahiyyətlərini həyata keçirir;

2.2.36-2. Cəmiyyətin bu nizamnamə ilə müəyyən edilmiş fəaliyyətinin əsas məqsədinə uyğun olaraq satış məqsədilə inşa edilmiş daşınmaz əmlak üzərində sərəncam vermə səlahiyyətlərini həyata keçirir;

2.2.36-3. istehsal-təsərrüfat ehtiyaclarını təmin etmək üçün malların (işlərin, xidmətlərin) satın alınması üzrə əməliyyatları beynəlxalq təcrübəyə və qanunvericiliyin tələblərinə cavab verən daxili prosedurlarına uyğun həyata keçirir;";

1.2.2. aşağıdakı məzmunda 6.4.14-1-ci və 6.4.14-2-ci yarımbəndlər əlavə edilsin:

"6.4.14-1. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi və Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması barədə qərar qəbul edir;

6.4.14-2. Cəmiyyətin bu nizamnamə ilə müəyyən edilmiş fəaliyyətinin əsas məqsədinə uyğun olaraq satış məqsədilə inşa edilmiş daşınmaz əmlak üzərində sərəncam verilməsi barədə qərar qəbul edir;";

1.2.3. 7.3-cü bənddə "7.8-ci və 7.9-cu bəndləri" sözləri "7.9-cu bəndi" sözləri ilə əvəz edilsin;

1.2.4. 7.9-cu bəndə "Cəmiyyətin" sözündən əvvəl "Bu Nizamnamə ilə müəyyən olunmuş hallar istisna olmaqla," sözləri əlavə edilsin;

1.2.5. 7.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.8. "ASK" ASC-nin mülkiyyətində (balansında) olan dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının tam məbləği onun büdcəsinə daxil edilməklə fəaliyyətinin təmin edilməsinə sərf olunur.";

1.2.6. 9.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.2.3. Cəmiyyətin törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin balansında olan əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi və Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması səlahiyyətlərini həyata keçirmək;";

1.2.7. 9.2.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.2.8-ci yarımbənd əlavə edilsin:

"9.2.8. Cəmiyyətin bu nizamnamə ilə müəyyən edilmiş fəaliyyətinin əsas məqsədinə uyğun olaraq satış məqsədilə inşa edilmiş və onun törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin balansında olan daşınmaz əmlak üzərində sərəncam vermə səlahiyyətlərini həyata keçirmək.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanını "Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1811 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2324) 1.3.4.1-ci yarımbəndində "İşçi Qrupu" sözləri "Katibliyi" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599; 2009, № 3, maddə 163; 2010, № 2, maddə 80, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 7, maddə 1260, № 8, maddələr 1377, 1384; 2017, № 6, maddə 1080) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"na aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

**"12. Yekun müddəa**

Azərbaycan Respublikası Prezidentinin aktları ilə dövlət əmlakına münasibətdə sərəncam vermək hüququnun həyata keçirilməsi, o cümlədən həmin əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi, dövlət müəssisələrinin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması ilə bağlı digər hallar nəzərdə tutula bilər.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"ni "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416; 2004, № 6, maddə 440, № 9, maddə 674; 2005, № 6, maddə 491, № 12, maddə 1102; 2006, № 7, maddə 592, № 8, maddə 659; 2007, № 6, maddə 615, № 9, maddə 869, № 10, maddə 947, № 11, maddə 1106; 2008, № 3, maddə 168, № 8, maddə 719; 2009, № 5, maddə 322, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 185; 2011, № 2, maddə 85, № 6, maddə 508, № 9, maddə 791; 2012, № 9, maddə 852; 2013, № 5, maddə 511, № 11, maddə 1320; 2014, № 12, maddə 1573; 2015, № 2, maddə 127, № 6, maddə 697, № 12, maddə 1474; 2016, № 3, maddə 455, № 6, maddə 1070, № 12, maddə 2057; 2017, № 5, maddə 783, № 10, maddə 1796) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1.6-cı yarımbənddə "cəzadan" sözündən sonra ", habelə probasiya nəzarətindən" sözləri əlavə edilsin.

2. 3.1.8-ci yarımbənddə "və məhkəmələrin" sözləri ", məhkəmələrin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin icra və probasiya qurumlarının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 8.10-1-ci yarımbənd əlavə edilsin:

"8.10-1. probasiya nəzarətinin həyata keçirilməsini təmin edir;".

2. 9.27-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.27. probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 45 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 45 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1512; 2017, № 3, maddə 353) 2-ci hissəsinə "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2018-ci il*

# Azərbaycan öz imkanları daxilində qlobal problemlərin həllinə kömək göstərir

*Əvvəli 1-ci səh.*

Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın genişləndirilməsinə də xüsusi önəm verir, mədəniyyətlərarası dialoq, multikulturalizm və tolerantlıq ideyalarını yorulmadan təşviq edir, öz imkanları daxilində qlobal problemlərin həllinə kömək göstərir. Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, 30 il əvvəl başlanmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi indiyədək həm ölkəmizin inkişafı, həm də regional əməkdaşlığın genişləndirilməsi yolunda ən ciddi maneə olaraq qalmaqdadır. Ekspansionist siyasət yürüdən Ermənistan torpaqlarımızın 20 faizini zəbt etmiş və ölkəmizdə bir milyondan çox insanı məcburi köçkün vəziyyətinə salmışdır. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər nüfuzlu təşkilatlar münaqişənin ərazi bütövlüyü prinsipi əsasında ədalətli həllinə dair qərarlar qəbul etsələr də, təcavüzə son qoyulması üçün indiyədək beynəlxalq birlik tərəfindən təsirli tədbirlər görülməmişdir. Ümid edirəm ki, Alyans üzvləri mövcud reallığı nəzərə alaraq, insan hüquqlarının kobud surətdə və kütləvi şəkildə pozulması ilə müşayiət olunan, regionda təhlükəsizliyə ciddi təhdid yaradan işğal faktına adekvat qiymət verəcəklər.

İnanıram ki, Azərbaycanda təşkil etdiyiniz toplantı yüksək işgüzarlıq şəraitində keçəcək, irəli sürülən təkliflər və qəbul edilən qərarlar qarşıya qoyduğunuz vəzifələrin yerinə yetirilməsinə, demokratiyanın və azad cəmiyyətin inkişafına, sülhün və əmin-amanlığın təmin olunmasına xidmət edəcəkdir. Hər birinizə bu yolda uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2018-ci il*

# "Hökumət və xüsusi dövlət rabitəsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 583 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 72, № 12, maddə 1249; 2017, № 3, maddə 380, № 11, maddə 2001; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 may tarixli 43 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 10.14-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 10.15-ci bənd əlavə edilsin:

"10.15. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın katibi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayeva "Birlik ulduzları" mükafatına layiq görülüb



Dövlətlərarası "Birlik ulduzları" mükafatının təqdim edilməsi üzrə Şura incəsənət, elm və təhsil sahəsində görkəmli nailiyyətlərə görə 2017-ci ilin laureatlarını elan edib. AZƏRTAC TASS agentliyinə istinadla bildirir ki, MDB İştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) bu barədə iyunun 9-da məlumat verib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Nərgiz Paşayeva elm sahəsində "Birlik ulduzları" mükafatına layiq görülüb.

Məlumatda deyilir: "Münsiflər heyətinin qərarı ilə mükafatlara səkkiz namizəd layiq görülüb". Laureatlar arasında SSRİ xalq artisti, alt alətində çalan və dirijor Yuri Başmet (Rusiya), skripkaçı Ayman Musaxacayeva (Qazaxıstan), şair Nizom Kosim (Tacikistan), ədəbiyyatşünas Abdıldajan Akmataliyev (Qırğızıstan), bir idmançı - belaruslu biatlonçu Darya Domraçeva və başqaları var.

Mükafatlar MDB İştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının iyunun 19-20-də Astanada keçiriləcək XIII forumunda təntənəli mərasimdə təqdim olunacaq.

# Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1521; 2015, № 11, maddə 1309; 2016, №1, maddə 48; 2017, №12 (I kitab), maddə 2344; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli 431 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

# Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammiti keçirilib

Əvvəli 1-ci səh.

Hər kəsə aydındır ki, müasir dövrün çağırışlarının həlli beynəlxalq münasibətlərin bütün iştirakçıları arasında hüquq bərabərliyinə əsaslanan davamlı dialoqdan çox asılıdır. Bununla əlaqədar mən parlamentlərarası əməkdaşlığın və onun keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyasının əhəmiyyətini xüsusilə qeyd etmək istəyirəm”, - deyə Ziyafət Əsgərov əlavə edib.

Milli Məclis Sədrinin birinci müavini diqqətə çatdırıb ki, hökumətlərin xarici siyasət qərarlarına təsir göstərmək üçün spesifik siyasi mexanizm və alətlərə malik olan parlament demokratiyası dövlətlərarası əməkdaşlığın inkişafında mühüm rol oynayır. Müstəqil institut olan parlament diplomatiyası klassik diplomatiyanın bütün komponentləri ilə üzvi surətdə bağlıdır. Araşdırmalar göstərir ki, beynəlxalq münasibətlər çərçivəsində parlamentlərin çoxfunksiyalı fəaliyyətinin güclənməsi meyli universal xarakter daşıyır. Bu meyil dünyanın demək olar bütün dövlətlərini və onların yaratdıqları parlamentlərarası qurumları əhatə edir. Öz xalqlarından mandat alan müxtəlif siyasi qüvvələri və cərəyanları təmsil edən parlament üzvlərinin beynəlxalq təşkilatlar səviyyəsində əməkdaşlığı müasir dünya siyasətinin önəmli cəhətlərindən biridir.

Ziyafət Əsgərov qeyd edib ki, Azərbaycan parlamenti dövlətimizin xarici siyasətinin parlament ölçüsünü təmin etmək üçün bütün imkanlardan istifadə edir. Milli Məclisin deputatları beynəlxalq təşkilatlarda digər məsələlərlə yanaşı, ölkəmiz barədə həqiqətləri də həmkarlarına çatdırırlar. Biz inanırıq ki, qarşılıqlı hörmətə və etimada əsaslanan siyasi dialoq və əməkdaşlıq dünya birliyinin qarşılaşdığı problemlərin, o cümlədən dövlətimizin zorla cəlb edildiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərə bilər. Ermənistanın silahlı təcavüzü nəticəsində 30 ilə yaxındır ki, Azərbaycan ərazisinin 20 faizi işğal edilib, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Uzun illərdən bəri Azərbaycan beynəlxalq birliyə çağırışlar edərək ədalətin bərpa olunmasını, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərin həyata keçirilməsini tələb edir. Milli Məclis Sədrinin birinci müavini münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin, BMT Baş Məclisinin qərarının, Avropa Şurası Parlament Assambleyasının qətnaməsinin, habelə Avropa Parlamentinin və digər beynəlxalq qurumların sənədlərinin yerinə yetirilməsinin zəruriliyini qeyd edib. Bu münaqişənin, eləcə də digər oxşar münaqişə və problemlərin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri, xüsusən dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında nizama salınması Avropada və dünyada sülhün, sabitliyin, ədalətin və təhlükəsizliyin təmin edilməsinə xidmət etmiş olar.

Avropada Mühafizəkarlar və İslahatçılar Alyansına üzv olan Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev alyansın sammitinin Bakıda keçirilməsini mühüm hadisə adlandırıb. O, bu günlərdə ölkəmizdə və xaricdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinin qeyd edildiyini, Şərqdə ilk dəfə Azərbaycanda qadınlara səsvermə hüququnun verildiyini bildirib.

Qüdrət Həsənquliyev Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlərdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başvermə səbəblərindən, ağır nəticələrindən söhbət açıb. Vurğulayıb ki, Azərbaycanın qarşısında duran ən ciddi problem ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasıdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Azərbaycanın ərazi bütövlüyünün pozulması, azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması Ermənistanın “böyük Ermənistan” yaratmaq siyasətinin tərkib hissəsidir. “Ermənistan beynəlxalq hüquqa riayət edərsə, münaqişə həllini tapacaq. Bu münaqişə regionda böyük humanitar fəlakətə gətirib çıxarıb. Əgər münaqişə həllini taparsa, ölkəmizdə hərbi sahəyə qoyulan vəsait digər sahələrə yönəldilə bilər. Biz Dağlıq Qarabağ münaqişəsinin həlli zamanının çatdığını düşünürük. Azərbaycanın ərazi bütövlüyünün bərpası







üçün BMT Təhlükəsizlik Şurasının və digər təşkilatların sənədlərinə əməl etmək lazımdır”, - deyə o əlavə edib.

Qüdrət Həsənquliyev, həmçinin bu gün dünyada bir sıra terror qruplaşmalarının İslam dini adından törətdikləri cinayətlərdən danışıb, iştirakçıları bu proseslərə, o cümlədən Cənubi Qafqazda baş verən münaqişələrə səssiz qalmamağa, hüquq və ədaləti dəstəkləməyə çağırıb.

Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradil çıxışında sammitin iştirakçılarına ünvanladığı təbrik məktubuna görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O, Avropa ilə Azərbaycan arasında əlaqələri yüksək qiymətləndirib. Yan Zahradil alyansın Bakı sammitinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunduğu günlərə təsadüf etməsinin, ilk parlamentli respublikanın məhz Azərbaycanda yaradılmasının sevindirici hal olduğunu deyib.

“Təəssüf ki, Azərbaycan müxtəlif oyunların qurbanına, Avropa Parlamentinin və Avropa Şurası Parlament Assambleyasının birtərəfli və qərəzli qərarlarının predmetinə çevrilib. Buna son qoyulmalıdır. Azərbaycan çox vacib və nadir ölkədir. Bunun bir neçə səbəbi var. Azərbaycan sabit, proqnozlaşdırıla bilən və etibarlı ölkədir. Bu, əməkdaşlıq üçün mühüm amildir. Bu xüsusiyyətlər əsasında biz birgə gələcəyimizi qurmalıyıq. Əminliklə deyə bilərəm ki, bütün bunlara görə Azərbaycan dünyada öz layiqli yerini tutmalıdır”, - deyə Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti bildirib.

Sonra birgə foto çəkdirilib.

Sammit işini panel iclasları ilə davam etdirib.

## Enerji təhlükəsizliyi

Birinci panel iclası enerji təhlükəsizliyi mövzusunda olub.

İclasdan əvvəl çıxış edən Boliviyanın sabiq Prezidenti Xorxe Kiroqa Latın Amerikasındakı enerji, xüsusilə də neft və təbii qaz resurslarının iqtisadiyyata təsirlərindən, enerji təhlükəsizliyindən və karbohidrogenlərin ixrac coğrafiyasından danışıb. Bildirib ki, dünyada ən böyük neft ehtiyatlarına malik olan Venesuela məhz Amerika qitəsində yerləşir. Lakin son dövrlərdə Venesuela iqtisadiyyatındakı zəifləmə, ölkədə gedən siyasi proseslər və bu ölkəyə qarşı tətbiq edilən sanksiyalar fonunda neft hasilatı və ixracında geriləmələr yaşanıb.

Panel iclasının moderatoru Böyük Britaniya hökumətinin naziri Ceyms Varton qlobal enerji mənbələrinə tələbatdan, neft və təbii qazın ölkələrarası münasibətlərə təsirindən bəhs edib.

SOCAR-ın marketinq və biznesin inkişafı şöbəsinin rəisi Emil Qasımlı Azərbaycanın enerji resurslarının zənginliyindən və ölkəmizin neft tarixindən danışıb. Bildirib ki, dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft Bakıda hasil edilib.

Emil Qasımlı Azərbaycanın liderliyi ilə reallaşdırılan “Cənub qaz dəhlizi”nin əhəmiyyətindən, bu boru kəməri zəncirinin Avropanın enerji təhlükəsizliyinə və mənbələrin şaxələndirilməsinə verəcəyi töhfələrdən bəhs edib. Diqqətə çatdırıb ki, layihənin ilk iki seqmenti artıq tamamlanıb, üçüncü seqmenti - TANAP isə yaxın günlərdə istismara veriləcək.

Siyasi analitik Alberto de Santis Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP boru kəməri layihəsinin əhəmiyyətindən danışıb. Vurğulayıb ki, Avropa İttifaqı, xüsusilə də ABŞ bu layihəyə öz dəstəyini ifadə edib. Çünki bu boru kəməri Avropaya yeni mənbədən təbii qazı çatdıracaq, bir mənbədən asılılığı azaltmaqla qitənin enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. O deyib: “Bu boru kəməri Yunanıstan, Albaniya və İtaliya ərazisindən keçir. TAP-la Avropaya ildə 10 milyard kubmetr təbii qaz nəql olunacaq. Bununla da Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan qaz həcmləri Aralıq dənizi sahillərinə çatacaq. Bu həcm qitənin tələbatını əhəmiyyətli dərəcədə ödəyəcək”.









Qazaxıstandan olan ekspert Qani Abadildinov isə Mərkəzi Asiya regionunun enerji resurslarından və ixrac marşrutlarından danışıb. Bildirib ki, bu regiondakı ölkələrdə hasil edilən təbii qazın əsas alıcısı Rusiyadır. Mərkəzi Asiyanın təbii qaz resurslarının Avropaya da nəqli hər zaman gündəmdə olub. Hazırda isə Çinin enerji, xüsusilə də təbii qaz tələbatı durmadan artır. Bu da regiondakı ölkələrin öz qazını yeni bazara ixracına imkan yaradır.

Siyasi ekspert Roger Evans isə dünyada, xüsusən də Avropada alternativ və bərpa olunan enerji mənbələrinə diqqətin artdığını deyib. Qeyd edib ki, hazırda bu sahə üzrə böyük potensialı olan ölkələr ənənəvi enerji mənbələri əvəzinə daha təmiz mənbələrə, yəni, bərpa olunan enerji növlərindən istifadəyə üstünlük verirlər. Çünki ənənəvi mənbələrdən asılılıq səmərəli deyil.

## İqtisadi azadlıqlar

İkinci panel iclası iqtisadi azadlıqlar mövzusuna həsr edilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov iclasda çıxış edərək ölkəmizin əldə etdiyi iqtisadi nailiyyətlərdən danışıb. O deyib ki, bu ilin birinci rübündə Azərbaycanda ümumi daxili məhsul 1,2 faiz artıb. Ölkədə əsas diqqət qeyri-neft sektoru üzrə ixraca yönəlib. Ümumi ixrac 16 faiz, qeyri-neft ixracı isə 19,3 faiz artıb.

Nazir müavini qeyd edib ki, Azərbaycan dünya iqtisadiyyatına uğurla inteqrasiya olunur: “Biz çoxtərəfli ticarət sazişləri imzalayır, eyni zamanda, hüquqi bazanı təkmilləşdiririk. Beynəlxalq Maliyyə Korporasiyası və Dünya Bankı ilə əməkdaşlıq edirik. İqtisadiyyatın şaxələndirilməsi neft və qaz ölkəsi üçün, eləcə də Azərbaycan üçün çox önəmlidir. Bunun üçün dəqiq strategiyaların olması önəmlidir. Azərbaycanda dövlət vəsaitinin hara xərclənməli olduğu dəqiq bilinir və bu da uğurlu nəticələrini verməkdədir”.

Kanadada fəaliyyət göstərən Fraser tədqiqat institutunun nümayəndəsi Fred Makmahon iqtisadi azadlıq üçün açıq rəqabətin, əmlak hüquqlarının müdafiəsinin təmin olunmasının əhəmiyyətini vurğulayıb. O deyib ki, ölkələr hüquqi bazanın necə yaradılması haqqında düşünməlidirlər. İnnovasiyaların təşviqinə önəm verilməlidir. Fred Makmahon Azərbaycanda insanların rifah halının yaxşılaşdırılması istiqamətində görülən işləri qeyd edib.

Böyük Britaniyanın İqtisadi Məsələlər İnstitutunun beynəlxalq ticarət və rəqabət bölməsinin rəhbəri Şanker Sinqham iqtisadi sahədə sağlam rəqabət mühitinin təmin edilməsinin əhəmiyyətindən danışıb, bunun sahibkarlığın inkişafına da təkan verdiyini söyləyib. O, Azərbaycanda belə bir mühitin yaradıldığını bildirib.

Omanın İnvestisiyaların və İxracın Təşviqi qurumunun nümayəndəsi Azzan Al Busaidi bildirib ki, hər hansı bir ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün sərmayə qoyuluşu vacib şərtdir. Əsas məsələ dövlət və özəl sektor arasında tərəfdaşlığın təmin edilməsidir. Özəl sektorun dövlət tərəfindən dəstəklənməsi olduqca önəmlidir.

## Rəqəmsal iqtisadiyyat

Sammit çərçivəsində rəqəmsal iqtisadiyyat mövzusunda üçüncü panel iclası keçirilib.

Panelin moderatoru Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının İdarə Heyətinin üzvü Daniel Cappezon iclasın rəqəmsal iqtisadiyyatda xarici investisiyaların yatırımı istiqamətində atılan addımların, ən yaxşı təcrübələrin təhlil edilməsi imkanı yaratdığını söyləyib. O, əminliyini bildirib ki, rəqəmsal sahədə uğurlu nümunənin araşdırılması istiqamətində müzakirələr səmərəli nəticələr verəcək. Daniel Cappezon Azərbaycan hökumətinin rəqəmsal iqtisadiyyatı inkişaf etdirmək üçün önəmli addımlar atdığını vurğulayıb.

Fransanın Telecom Paris Tech qurumunun iqtisadiyyat və menecment üzrə professoru Gerard Pagorel texnoloji inqilab nəticəsində dünyada rəqəmsal keçid mərkəzlərinin, rəqəmsal robotların, layihələndirmə üçün virtual mühitin, sürətli prototip sistemlərinin yaradılması prosesindən danışıb. O deyib ki, rəqəmsal iqtisadiyyatın təşəkkülü və sürətli inkişafı ənənəvi iqtisadiyyatda da bir çox dəyişikliklərin, yeniliklərin yaranmasına gətirib çıxarıb.

Samsung şirkətinin baş meneceri Mişel Pastore rəqəmsal iqtisadiyyatda konkret iqtisadi aspektlərin müəyyən olunmasının vacibliyini bildirib. Əlavə edib ki, belə olan halda beynəlxalq platformalara çıxış imkanı yaranır və bu da strategiyaları inkişaf etdirməklə qarşılıqlı əlaqə yaratmağa və daha səmərəli layihələr həyata keçirməyə imkan verir.

Telekommunikasiya üzrə analitik Visiola Pula əsasən 5G xidmətinə diqqət çəkib. Qeyd edib ki, Avropada çox yayılan bu xidmət vasitəsilə genişzolaqlı internetlə ən ucqar yerlərdə belə iqtisadiyyata töhfə vermək mümkündür. 5G rəqəmli iqtisadiyyatın inkişafında da önəmli rol oynayır.

Finlandiyanın “Mavi İslahat” partiyasının qurucusu və lideri Simon Elo rəqəmsal iqtisadiyyatın sürətli və uğurlu inkişafı üçün birinci növbədə qanunvericilik bazasının təkmilləşdirilməsini vacib hesab etdiyini bildirib. Vurğulayıb ki, bu sahədə startapların və yeni layihələrin hazırlanıb həyata keçirilməsi üçün islahatlar aparılmalı və güclü baza olmalıdır. Rəqəmsal mühitin yaradılmasının əsasını dövlət orqanları, vətəndaşlar, o cümlədən biznes qurumları arasında səmərəli münasibətlərin formalaşdırılması təşkil edir. Bütün bunların reallaşması üçün isə təhlükəsizlik əsasdır.

## Nəqliyyat və əlaqələndirmə

Azərbaycan regionda əsas nəqliyyat mərkəzinə çevrilib.

Bu fikir sammitin nəqliyyat və əlaqələndirmə mövzusuna həsr edilən dördüncü panel iclasında səsləndirilib.

İclasdan əvvəl Azərbaycanın beynəlxalq nəqliyyat sahəsində gördüyü işlərlə bağlı videotəqdimat olub.

Sonra çıxış edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə və bu sahədə uğurlu layihələr həyata keçirməklə dünyanın nəqliyyat xəritəsinə yeni imkanlar əlavə edib. Bu layihələr ölkəmizin əsas nəqliyyat və logistika mərkəzinə çevrilməsinə imkan yaradıb. Həmin layihələrin ən əsası Azərbaycan, Gürcüstan və Türkiyənin reallaşdırdığı və ölkəmizin təşəbbüsü olan Bakı-Tbilisi-Qars dəmir yoludur. Bu dəmir yolunu daha əhəmiyyətli edən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və həmin ərazidə yaradılmaqda olan Azad Ticarət Zonasıdır.

Nazir müavini “Şimal-Cənub nəqliyyat dəhlizi” barədə də məlumat verib. Bildirib ki, Astara (Azərbaycan) - Astara (İran) arasında yeni dəmir yolu körpüsü tikilərək istismara verilib. Həmçinin Azərbaycan İranda yük terminalı tikir. İlkin mərhələdə yaradılacaq infrastruktur sayəsində buradan quru yüklər, növbəti mərhələdə isə maye və dənli bitkilər daşınacaq.

Daha sonra panel iclasının moderatoru “Morgan Stanley” şirkətinin icraçı direktoru Tim Dier beynəlxalq nəqliyyat sahəsində baş verən yeniliklər barədə danışıb.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə Azərbaycanda nəqliyyatın bütün sahələrinin inkişaf etdiyini deyib. O, dəmir, avtomobil yollarının, gəmiçiliyin inkişafı ilə yanaşı, Azərbaycanın hava nəqliyyatı sahəsində də uğurlar əldə edildiyini söyləyib. Bildirib ki, Azərbaycanda 6 beynəlxalq hava limanı var və Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanlarının auditi sahəsində ən nüfuzlu “Skytrax World Airport Awards”ın maksimal “5 Ulduz” statusuna layiq görülüb.

“TRA” konsaltinq şirkətinin təsisçisi Andrea Giuricin və “Awan Marketing Plc”nin baş direktoru Nasir Avan nəqliyyat sahəsinin dünyada daim inkişaf tempi ilə yüksəldiyini, Azərbaycanın da bu sahəyə böyük töhfə verdiyini söyləyib.

Maldiv İnkişaf Alyansının nümayəndəsi Əhməd Şiyam isə nəqliyyatla turizm sahəsinin əlaqələrindən bəhs edib. Turizmin inkişafında bilavasitə nəqliyyatın əhəmiyyətli rolu olduğunu söyləyən Ə.Şiyam Azərbaycanın bu sahədəki fəaliyyətinin uğurlu olduğunu deyib.

Paneldə beynəlxalq nəqliyyat sahəsində görülən işlər və Azərbaycanın bu sahədəki fəaliyyəti barədə fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Təhsilin transformasiyası

Sammitin təhsilin transformasiyası mövzusunda keçirilən beşinci panel iclasında təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycanda təhsilin inkişafı istiqamətində görülən işlərdən, əldə edilən nailiyyətlərdən danışıb. O deyib ki, təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib.

Ölkəmizdə son beş il ərzində təhsil sahəsində görülən işlərdən söz açan F.Qurbanov deyib: “Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb. Təhsilin keyfiyyətinə təsir göstərən ən vacib amillərdən biri erkən yaş inkişafı ilə bağlıdır. Təhsil Nazirliyi bu istiqamətdə lazımi addımlar atır”.

Nazir müavini vurğulayıb ki, ölkədə cari ilin sonunadək 250-dək modul tipli məktəbin tikilməsi nəzərdə tutulur. “Ali təhsilə qəbul olunanların sayı 2013-cü ildəki 145 mindən artaraq 162 minə, ali təhsilin bakalavriat pilləsindən magistratura pilləsinə qəbul olunanların sayı 2013-cü ildəki 35 mindən artaraq 44 minə çatıb. Hazırda təhsildə qızların sayı artıb. Müəllimlərin 82 faizini, tələbələrin isə 46 faizini qadınlar təşkil edir. Bu gün əsas məqsədimiz universitetlərdə tələbələrin startap hərəkatlarına töhfə vermək, iş yerləri yaratmaq psixologiyasını formalaşdırmaqdır. Fikrimizcə, təhsilin transformasiyası sosial-mədəni potensial xarakteri alıb. Müasir dövrdə təhsildə transformasiyanı informasiya-kommunikasiya texnologiyalarının təsiri olmadan təmin etmək mümkün deyil. Onlar təhsil sisteminin daha dərin transformasiyası üçün onun maddi-texniki bazasına çevrilir. Ölkəmizdə bunları nəzərə alaraq təhsil prosesində multimedia texnologiyaları tətbiq edilir. Ümid edirəm ki, bu sammitdə qəbul edilən təklif və tövsiyələr hamı üçün faydalı olacaq”, - deyə nazir müavini bildirib.

F.Qurbanov diqqətə çatdırıb ki, 2019-cu ildə informatika üzrə şagirdlər arasında dünya olimpiadası Bakıda keçiriləcək. Artıq ölkəmizdə bunun üçün hazırlıq işlərinə başlanılıb.

Sonra Dini Azadlıq üzrə Avropa Dinlərarası Forumunun nümayəndəsi Erik Rouks, Polşanın Təhsil Nazirliyinin nümayəndəsi Sebastian Keciek, İslandiya Universitetinin professoru Hannes Gissurarson və Böyük Britaniyanın Aston Universitetinin nümayəndəsi Asif Əhməd mövzu ətrafında müzakirələr aparıblar.

## Yerli idarəçilik

Bakı sammiti çərçivəsində sonuncu panel iclası yerli idarəçilik mövzusuna həsr edilib.

Panelin moderatoru Avropa Regionları Komitəsində ECR Qrupunun baş katibi Neva Sadikoğlu-Novaki mövzu ilə bağlı fikirlərini bildirib. O deyib ki, yerli idarəçilik qərarların yerli səviyyədə olmasına üstünlük verilməsidir. Siyasi partiyalar arasında ortaq məxrəcə gəlmək önəmlidir. O vurğulayıb ki, Azərbaycanda yerli idarəçilik sahəsinə xüsusi diqqət yetirilir.

İclasda çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ölkəmizdə idarəçilik sisteminin yüksək səviyyədə qurulduğunu deyib. O bildirib ki, Azərbaycan hökuməti yerli idarəçiliyi inkişaf etdirmək üçün önəmli addımlar atıb.

İcra başçısı qonaqlara Gəncə şəhəri haqqında məlumat verib. Bildirib ki, Gəncədə inkişaf və müasirləşmə yeni mərhələyə qədəm qoyub. Mövcud təhsil, səhiyyə məkanları yenidən qurulur, avtomobil yolları çəkilir, infrastrukturun yaxşılaşdırılması üzrə layihələr həyata keçirilir. Turizmin inkişafı ilə əlaqədar hazırda Gəncədə mühüm işlər görülür. Yeni sosial-mədəni, infrastruktur layihələrinin açılışı olur. Şəhərdə çoxsaylı ticarət, sənaye obyektləri, istirahət məkanları, mədəni mərkəzlər yaradılır. Bu il beynəlxalq qatar yolu da istifadəyə veriləcək ki, bu da ölkəmizə turist axınına əlverişli şərait yaradacaq.

İtaliyanın Morazzone bələdiyyəsinin sədri və parlament üzvü Matteo Biançi bildirib ki, yerli hakimiyyət orqanlarının fəaliyyəti ondan ibarətdir ki, lazım olan məqamda idarəçiliyi ələ alsınlar və fəaliyyət göstərsinlər. Yerli icmalar maraqlarını nəzərə alaraq müəyyən qərarlar verə bilərlər. Bunun üçün yerli vətəndaşlara daha çox imkan verilməlidir.

Slovakiya Respublikası Milli Şurasının üzvü Juray Droba deyib ki, insanlar özləri üçün qərarlar verə bilərlər. Bunun üçün onlara lazımi şərait yaradılmalıdır. Yerli qurumlar vətəndaşlara öz işlərini aparmağa yardım etməlidir. Müasir dövrdə cəmiyyətdə yerli idarəetməyə daha çox önəm verilməlidir.

Böyük Britaniyanın Tees Valley şəhərinin meri Ben Houçen qeyd edib ki, yerli idarəçiliyin inkişafı dövlət idarəçiliyində rəhbər şəxslər qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələri uğurla və səmərəli icra etmək üçün müasir təlim texnologiyalarından, yüksək bilik və təcrübədən geniş istifadə olunmalıdır.

* * *

Panel iclaslarından sonra alyansın icraçı direktoru Riçard Milsom və “Yeni İstiqamət” (Avropa İslahat Fondu) təşkilatının icraçı direktoru Navid Xan yekun nitqi söyləyiblər. Onlar tədbirdə faydalı müzakirələrin aparıldığını, yeni fikir və təkliflərin irəli sürüldüyünü bildiriblər. Qeyd edilib ki, müasir dövrdə təcrübələr bölüşülməli, biliklərdən birgə istifadə edilməlidir. Bu baxımdan Bakıda keçirilən bu sammit xüsusi önəm kəsb edir.

Bununla da Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammiti başa çatıb.



# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018

# Köhnə qitənin yeni enerji damarı

Əvvəli 1-ci səh.

### Layihəyə hələ ki 30 milyard dollardan çox vəsait sərf olunub

Dünya miqyasında ən böyük enerji layihələrindən biri hesab edilən "Cənub qaz dəhlizi"nə bu ilin aprel ayının sonunadək tərəfdaşlarla birgə 30 milyard dollardan çox vəsait xərclənib.

Həmin vəsaitdən ümumi dəyəri 22,7 milyard dollar təşkil edən "Şahdəniz-2" layihəsinə 17,7 milyard, dəyəri 4,6 milyard dollar olan Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsinə 4,2, TANAP-a 5,4, TAP layihəsinə isə 2,9 milyard dollar sərf olunub.

### Azərbaycan bu il layihəyə 1,3 milyard dollar vəsait ayırıb

Bu il Azərbaycanın "Cənub qaz dəhlizi"nə təqribən 1,3 milyard dollar vəsait ayırıb. Bundan "Şahdəniz" layihəsinə (mövcud "Şahdəniz-1" layihəsi daxil olmaqla) 232 milyon dollar, Cənubi Qafqaz Boru Kəməri layihəsinə 144 milyon dollar, TANAP-a 728 milyon, TAP layihəsinə isə 182 milyon dollar xərclənməsi nəzərdə tutulur.




"Cənub qaz dəhlizi"nin tərkibindəki layihələrin mülkiyyətindəki iştirak paylarının maliyyələşdirilməsinə 2014-2020-ci illərdə 11,5 milyard dollar vəsait qoyulacaq.

### Qarşısına qoyduğu bütün hədəflərə çatan ölkə

Əlbəttə ki, bütün bunlar böyük nailiyyətdir və Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, uğurlu xarici diplomatiyasının təntənəsidir.

Bu layihə qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək, milli iqtisadiyyatın inkişafında mühüm faktor olacaq.

Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycanın iştirakı ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və inşası bu gün də davam edən "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri kimi milyardlarla investisiya yatırılan bu layihələr Azərbaycanın nəyə qadir olduğunu sübuta yetirir. Eyni zamanda Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatdığını bir daha təsdiqləyir.

"Cənub qaz dəhlizi"nin açılış mərasimində geniş nitq söyləyən İlham Əliyev də bəyan etdi ki, Azərbaycan qazı yeni mənbədir və bu layihə yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir.

Azərbaycan artıq beynəlxalq təbii qaz mərkəzinə çevrilib və qlobal enerji təhlükəsizliyinə öz töhfəsini verir. "Cənub qaz dəhlizi" isə ölkəmizə böyük dividendlər qazandıracaq və Azərbaycanın dünya birliyindəki çəkisini daha da artırmış olacaq.

**_Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"_**

# İqtisadi siyasətin dəyişməz hədəfi

*Əhalinin sosial müdafiəsinin gücləndirilməsi bu gün də dövlətin ən çox vəsait ayırdığı sahələrdəndir*

Əvvəli 1-ci səh.

Müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda əlil olmuş insanlar da Heydər Əliyevin daim nəzərində olub. Ulu öndər bu kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək üçün 29 dekabr 2000-ci il tarixli "Əlil olmuş və digər kateqoriyalardan olan bir qrup aztəminatlı vətəndaşa dövlət yardımının artırılması haqqında" sərəncam imzalamışdır. Həmin sənədə əsasən, ölkəmizi erməni təcavüzündən müdafiə edərkən və 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olan şəxslərə verilən aylıq müavinət yenidən hesablanaraq 50 faizdən çox artırılmışdır.

Həmin siyasət bu gün də davam edir. Son rəqəmlərə nəzər salaq: Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il aprelin 1-i vəziyyətinə ölkədə 1 milyon 313,1 min nəfər pensiyaçı qeydiyyatda olub. Bu da ölkə əhalisinin 13,4 faizini təşkil edir.

Onların 58,8 faizi yaşa, 29,8 faizi əlilliyə, 11,4 faizi ailə başçısını itirməyə görə pensiya alır. Bu gün ölkədə aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artaraq 218,3 manata çatıb və bu, orta aylıq əməkhaqqının 41 faizinə bərabərdir. Təkcə bu ilin 3 ayı ərzində pensiya və müavinətlərin maliyyələşdirilməsinə 895,7 milyon vəsait yönəldilib. Bu da keçən ilin eyni dövrü ilə müqayisədə 66,7 milyon manat çoxdur.

Bundan savayı, ölkə üzrə cari ilin 1 aprel vəziyyətinə



398,6 min nəfərə sosial müavinət təyin olunub. Yaşa görə müavinət alanların sayı 36,2 min, əlilliyə görə 161,5 min, ailə başçısını itirməyə görə 44,9 min, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşında uşaqların sayı 73,5 min nəfərdir. Eyni zamanda, əmək pensiyası almaq hüququ olmayan 54,1 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinətlər ödənilir.

Cari il mayın 1-i vəziyyətinə, ilkin məlumatlara görə, iqtisadi fəal əhalinin sayı 5 milyon 83,3 min nəfər olub. Onların 4 milyon 830,6 min nəfərini məşğul əhali təşkil edir. Müəssisə və təşkilatlarda muzdla işləyən işçilərin çox hissəsi məhsul istehsalı, emal, tikinti, kənd təsərrüfatı sahələrində çalışır. Xidmət sahəsində çalışan işçilərin əksəriyyəti təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri, səhiyyə və sosial xidmətlərin göstərilməsi, dövlət idarəetməsi və müdafiə sektorunda fəaliyyət göstərir.

Bu il may ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı 37,1 min nəfər olub. Onların 36,6 faizi qadınlardır. Dövlət bu kateqoriyadan olan insanların da sosial müdafiəsini diqqət mərkəzində saxlayır. Belə ki, hesabat dövründə işsizlik müavinətinin və işsizlikdən sığorta ödənişinin orta məbləği 354,2 manat olub.

Bütün bunlarla birlikdə həyata keçirilən iqtisadi-sosial siyasətin əsas məqsədi yeni iş yerləri açmaqla əhalinin güzəranının yaxşılaşdırılmasıdır. Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına istiqamətlənən III Dövlət Proqramının icrasını əhatə edən 2014-cü ildən 2018-ci il aprelin 1-dək ümumilikdə 765 min olmaqla 565,2 min daimi iş yeri açılıb. Cari ilin birinci rübü ərzində ölkədə 43,8 min yeni, o cümlədən 34,8 min daimi iş yeri yaradılıb. Açılan yeni iş yerlərinin 59,6 faizi qeyri-dövlət sektorunun payına düşür. Yeni iş yerlərinin 35,5 faizi Bakıda, 1,4 faizi Naxçıvan Muxtar Respublikasında, 63,1 faizi digər regionlarda açılıb. Daimi iş yerlərinin 9,5 faizi yeni yaradılan, 38,1 faizi mövcud, 0,6 faizi fəaliyyətini bərpa edən müəssisə və təşkilatlarda, 51,8 faizi fərdi sahibkarlıq subyektlərində yaradılıb.

Bu ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 3,5 faiz artaraq 532,4 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3244,9, qeyri-neft sektorunda 470,1, dövlət müəssisələrində 411,4, özəl müəssisələrdə 698,7 manat olub. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahəsində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksəkdir.

Cari ilin yanvar-aprel aylarında ölkə əhalisinin ümumilikdə nominal gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 16 milyard 272,8 milyon manata çatıb. 4 ay ərzində əhalinin hər nəfərinə orta hesabla 1662,1 manat gəlir düşüb.

**_Rüstəm KAMAL, "Azərbaycan"_**

# Dövlətin dəstəyi və kəndlinin əməyi ölkənin ərzaq təhlükəsizliyinə təminat verir

Əvvəli 1-ci səh.

Ona görə də əgər Azərbaycanda belə holdinqlər - aqroparklar yaradılırsa, bu, sadəcə zəruri qanunauyğunluq, islahatların düzgün aparılmasının göstəricisidir".

Həqiqətən də ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsini təmin etmək gücündə olan müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Başqa sözlə desək, intensiv texnologiyaların və müasir dünya təcrübəsinin tətbiqini qaçılmaz edən aqroparkların yaradılması günün tələbidir. Yalnız bu yolla rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalını və ixrac potensialını artırmaq mümkündür.

"Region Aqropark"a gəldikdə, onun yaradılması üçün Goranboy və Samux rayonlarında uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş 3500 hektar və 1200 hektar qış otlaq sahələrinin təyinatı Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş, torpaq sahələrinin əkinəyararlı vəziyyətə gətirilməsi üçün ərazidə yarğanlar



doldurulmuş, yüksəkkeyfiyyətli hamarlama işləri aparılmış, torpağın biohumus qatının bərpası məqsədilə böyük həcmdə kompos verilmişdir. Hər birinin tutumu 3 min ton olan 6 taxıl anbarı kompleksi və saatda istehsal gücü 10 ton olan qurutma sistemi inşa edilmiş, 72 yerlik ikimərtəbəli tam infrastruktura malik müasir yataqxana və ikimərtəbəli ofis binası tikilmişdir.

Onu da qeyd edək ki, bu cür aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapır, işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılır, yerli istehsal inkişaf edir, ixrac imkanları genişlənir. Çünki belə parklarda yetişdirilən məhsullar ixracyönümlü olur. Ümumiyyətlə, kənd təsərrüfatı ilə bağlı siyasətin uğurlu icrası bu sahəyə böyük diqqət və qayğının olması ilə bağlıdır. Azərbaycanda kənd təsərrüfatının prioritet sahələrdən biri kimi inkişaf etdirilməsi də bu amildən irəli gəlir. Özü də bu inkişaf yalnız ən müasir texnologiyalar və qabaqcıl elmə əsaslanır. Bunun nəticəsidir ki, yeni aqroparklar istifadəyə verildikdən sonra, ilkin hesablamalara görə, ildə ölkə üzrə əlavə 600 milyon manatlıqdan çox kənd təsərrüfatı məhsulları istehsal olunacağı gözlənilir.

Hazırda respublikanın 30 rayonunda aqropark yaradılır. İndiyədək dövlət dəstəyi hesabına bu iş üçün ümumilikdə 311,8 milyon manat əsaslı investisiya qoyulmuş, ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək güzəştli dövlət kreditləri ayrılmışdır. Bundan başqa, 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilmişdir. Maraqlıdır ki, sahibkarlar da aqroparkların yaradılmasında öz kapitallarından istifadə edirlər.

Aqroparkların üstünlüklərindən biri də onların kiçik pay torpaq sahələrinə malik kəndlilər üçün böyük əhəmiyyətə malik olmasıdır. Yaradılacaq aqroparkın hər biri ətraf kəndlərdəki fermerlər üçün sözün əsl mənasında bir universitet olacaq. Fermerlər öz sahələrində aqroparklardan görüb-götürdüklərini tətbiq edə və lazım gələndə mütəxəssislərdən faydalı məsləhətlər ala biləcəklər.

**_Bahadur İMANQULİYEV, "Azərbaycan"_**

# Tovuzlu kümçülərin builki hədəfi 10 tondur

Əvvəli 1-ci səh.

Rayonun Cəlilli kəndinin sakini Şəhla İsmayılova 150 kiloqram barama təhvil verməyi nəzərdə tutub. Təcrübəli kümçü keçən il 2 qutu ipəkqurdu götürüb.

4 qutu ipəkqurdu bəsləyən Tovuz şəhərinin sakini Nisə Abbasova həyətində hər cür şərait yaradıb. Söhbət zamanı dedi ki, barama yetişdirmə dövrü az olmasına baxmayaraq, gərək diqqətli olasan. Yemləməni vaxtında aparasan. Barama saxlanan yerin hərarəti nəzarətdə saxlanılmalıdır.

Gəlirli sahə olduğunu vurğulayan Cəlilli kəndinin sakini Bahar Fərzəliyeva da deyir ki, cəmi 30-40





gün zəhmətini çəkib bəhrəsini görürsən. Həyətimizdə bir neçə heyvan da saxlayırıq. Lakin o qədər də gəlir gətirmir. Odur ki, gələcəkdə barama istehsalını 2-3 dəfəyədək artırmaq fikrindəyəm.

Məlumdur ki, baramaçılığın inkişaf etdirilməsində əsas amillərdən biri yem bazasının yaradılmasıdır. Bunun üçün rayonda xeyli iş görülmüşdür. Təkcə keçən il rayon ərazisində Çin Xalq Respublikasından gətirilmiş 10 min, bu il isə 3 min və 5 min yerli tut ağacları əkilmişdir. Bu ağaclar böyüdükdən sonra baramaçılıqda yemə olan tələbat əsasən həll ediləcək.

**_Sabir ƏLİYEV, "Azərbaycan"_**



# Xalxal turistlərə gəl-gəl deyir







Oğuz ölkəmizin füsunkar təbiəti ilə seçilən bölgələrindəndir. Rayonun Xalxal bələdiyyəsinin tərkibinə daxil olan Xalxal, Ərmənət və Xalxal-Qışlaq kəndləri özünəməxsus iqlimi ilə bu gözəlliyə fərqli rəng qatır. Elə bu səbəbdən də şimal-qərb bölgəsinə üz tutan turistlər mütləq həmin məkanları ziyarət edirlər. O yerlərin havası, suyu, gələnlərə yetirilən diqqət məmnunluq doğurur.

Həmin kəndlər arasında Xalxal xüsusilə seçilir. Xalxal bələdiyyəsinin sədri Nəriman Ramazanov deyir ki, Xalxal Oğuzun ən qədim kəndlərindəndir. Bu kənddə hələ lap qədim dövrlərdən sənətkarlıq inkişaf edib. Kənddə kəl arabalarının təkər hissəsini istehsal edən sex fəaliyyət göstərib. Xüsusi dəmirçilər isə həmin sexin davamlı fəaliyyəti üçün avadanlıqlar istehsal ediblər. Su ilə işləyən taxıldöyən ding də bu kənddə istifadə olunub. Buradakı su dəyirmanları lap son illərə kimi səmərəli şəkildə istifadə olunub. Hətta keçən əsrin əvvəllərində Xalxalda yaşayan Hacı Vahab oğlu Hidayət adı ilə tanınan məşhur insan baramanın ilkin emalını təşkil etmək üçün Türkiyədən sex gətirərək işlədib. Sexin qalıqları son illərə kimi qalıb.

Xalxal coğrafi baxımdan elə bir ərazidə yerləşir ki, qərbdən şərqə doğru bir qədər açıqlıq, şimaldan dağlar və qayalıqlarla əhatə olunur. Hətta dağlıq hissədən Dağıstanın Axtı rayonunun Fıy kəndinə yol da var. Xalxalın fauna və florası zənginliyi ilə seçilir. Burada dağ keçisi, ayı, qaban, cüyür, canavar və digər heyvanlar çoxluq təşkil edir. Eyni zamanda, Şahdağ milli parkının bir hissəsi bu kəndin ərazisinə düşür.

Kəndin abadlığı və normal infrastrukturun yaradılması daim diqqət mərkəzində olub. Bu baxımdan kəndə gedən yol qeyd edilməlidir. Belə ki, Prezident İlham Əliyevin ayırdığı 4,5 milyon manatlıq vəsait hesabına 2012-ci ildə Xalxala müasir tələblərə cavab verən yol çəkilişi həyata keçirilib. Yol turistlərin daha çox ziyarət etdikləri ən ucqar şəlaləyə kimi çəkilib. Halbuki əvvəllər həmin yerlərə qalxmaq üçün xeyli əziyyət çəkməli olurdular.

Həmçinin Dünya Bankının maliyyələşdirdiyi Kənd İnvestisiya Layihəsi çərçivəsində Aqçayın mənbəyindən su götürülərək kəndin tam şəkildə içməli suya olan tələbatının təmin edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Ərmənət kəndinin yuxarı hissəsinə 2 kilometrlik məsafədən keçən Türyançaydan su çəkilir. Aşağı hissəsinə isə 2014-cü ildə qazılmış artezian quyusu vasitəsilə suyun verilişi təmin olunur. Hər 3 kənddə elektrik enerjisi təminatı və ümumiyyətlə, işıqlandırma məsələləri öz həllini tapıb. Ərmənət kəndində 180 yerlik tam orta məktəb inşa edilib və kəndarası yollar təxminən 20 kilometr uzunluğunda təmir olunub. Xalxal kəndində isə məktəb üçün yardımçı bina tikilib. Xalxal-Qışlaq kəndində 2 artezian quyusu qazılıb və 50 nəfər şagird tutumu olan modul tipli məktəb inşa edilib.

Qeyd olunan kəndlərin sakinlərinin çətinlikləri əsasən təbii qazla təmin olunmamalarıdır. N.Ramazanovun sözlərinə görə, artıq aidiyyəti strukturlar tərəfindən müvafiq istiqamətdə addımlar atılmaqdadır. Layihə sənədlərinin hazırlanması istiqamətində görülən işlər də yekunlaşıb.

Kənddə süni qızılbalığın saxlanıldığı şəlalə də yaradılıb. Zamanında isə Xalxal çayının hündür hissələrində yetəcək qədər qızılbalıq olub. Hazırda bu qiymətli balıq növü tükənmək üzrədir.

Kənddə "Qreland", "Xan bağı", "Şəlalə" və sair turizm istirahət mərkəzləri fəaliyyət göstərir. Buradakı istirahət mərkəzlərinə yerlilərlə yanaşı, xarici turistlərin də axını artmaqdadır. Son illər kəndi ziyarət edən xarici turistlər arasında ərəblər daha çox üstünlük təşkil edirlər.

Hər 3 kənd üzrə ümumilikdə 370 təsərrüfat və 2 min nəfərə yaxın sakin məskunlaşıb. Onların başlıca məşğuliyyətləri heyvandarlıq, əkinçilik və tütünçülükdür. Keçən ildən isə burada baramaçılığa start verilib. Bundan başqa, kənddə fındıqçılığa da ciddi diqqət göstərilir. Təkcə son 2 ildə burada 170 hektara yaxın fındıq bağı salınıb. Əkinəyararlı sahələr ümumilikdə 800 hektara yaxındır.

Baramaçılığın inkişaf etdirilməsi ilə bağlı tut bağlarının salınması da gündəlikdə dayanan məsələlər sırasındadır.

Qeyd olunan kəndlər ziyalıları ilə də seçilirlər. Məsələn, Xalxal-Qışlaq kəndinin ən məşhur şəxsiyyətlərindən biri tibb elmləri namizədi, uzun illər mavi ekrandan izlədiyimiz Əlfəddin Abdullayevdir. O, 30 il 4 saylı xəstəxananın baş həkimi işləyib. Oğlu Nazim Abdullayev isə tibb elmləri doktoru və professordur. Hazırda Kardiologiya İnstitutunda şöbə müdiridir. Hacı Vahab oğlu Hidayət isə bütün Xalxal sakinlərinin qəlbində özünün dərin izini buraxıb. Çətin günlərdə insanlara dayaq olub. Lakin o da 1937-ci ildə həbs edilərək Şəki türməsində güllələnib. Hacı Məcid də kəndin məşhurları arasındadır.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, cari ildə Ərmənət kənd tam orta məktəbində təhsil alan 12 nəfərdən ibarət sinfin bütün şagirdləri ali məktəblər üçün keçid balını toplayıblar. Hətta 4 nəfərin balı 600-dən çoxdur. Bu fakt da bir daha həmin kəndlərin gələcəyinin etibarlı əllərdə olmasından xəbər verir.

**_Əli SƏLİMOV, "Azərbaycan"_**

# Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının sammiti çərçivəsində "Bakı Expo 2025"in təqdimatı olub

İyunun 9-da Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının sammiti çərçivəsində "Bakı Expo 2025"in təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, "Bakı Expo 2025" üzrə xüsusi elçi, səfir Elnur Sultanov Azərbaycanın paytaxtının "Expo 2025"ə evsahibliyinə namizədliyinin irəli sürüldüyünü xatırladaraq Ümumdünya Sərgisinə hazırlıqla bağlı görülən işlərdən danışıb. O qeyd edib ki, Azərbaycanın müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən sərgilərin keçirilməsi ilə bağlı böyük təcrübəsi var.




Azərbaycanın zəngin mədəniyyətinin, qədim tarixinin olduğunu vurğulayan Elnur Sultanov bu günlərdə ölkəmizdə və xaricdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edildiyini bildirib. O, Azərbaycandakı multikultural mühit barədə məlumat verərək ölkəmizdə ayrı-ayrı etnik qrupların qarşılıqlı hörmət və harmoniya şəraitində yaşadığını deyib. Bildirib ki, Azərbaycan qarşılıqlı hörməti və anlaşmanı daim təbliğ edən ölkələrdəndir. Biz müxtəlif beynəlxalq tədbirlərə, o cümlədən mötəbər idman yarışlarına evsahibliyi edirik. Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Azərbaycan bir çox beynəlxalq enerji və nəqliyyat layihələrinin təşəbbüskarıdır. "Expo 2025" Azərbaycanın özünü beynəlxalq aləmə daha yaxından tanıtması, səsini dünyaya çatdırması üçün gözəl fürsətdir.

Elnur Sultanov qeyd edib ki, "Bakı Expo 2025" sərgisinin şüarı "İnsan kapitalını inkişaf etdirmək, daha yaxşı gələcək qurmaq"dır. 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisində lazımi mövzular ətrafında səmərəli müzakirələr apara bilərik. Həmin il davamlı inkişaf hədəflərinin qəbul olunmasının onilliyi də qeyd ediləcək. Bu sərgi 2030-cu il üçün davamlı inkişafın gündəliyinə daxil olan məsələlərin müzakirəsi baxımından nadir platforma olacaq.

Elnur Sultanov Bakının "Expo 2025" Ümumdünya Sərgisinə evsahibliyinə namizədliyini dəstəkləməyə çağırıb.

Sonra Azərbaycanın evsahibliyi etdiyi müxtəlif beynəlxalq tədbirlərə dair videoçarx nümayiş etdirilib.







# Açıq səma altında canlı bitki muzeyi

## Qafqazın ən zəngin kolleksiyasında - Mərkəzi Nəbatat Bağında 3000-ə yaxın bitki sortu və növü mühafizə olunur

**Gözəl bir yaz səhəridir. Çoxdandır getmək arzusunda olduğumuz Mərkəzi Nəbatat Bağının qarşısındayıq. Həmin məkanın önündəcə artıq ruhumuz dincəlməyə başlayır... Təsadüfi deyil ki, bağı Qafqazın ən zəngin kolleksiyası adlandırırlar. Burada hər cür müxtəlif yaşıllıqlara rast gəlmək mümkündür.**





Paytaxtda yerləşən bu bağ ölkəmizin xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malik təbiət ərazilərindən biridir. Burada dünyanın müxtəlif guşələrindən olan canlı bitki kolleksiyaları becərilir, öyrənilir, eyni zamanda nümayiş etdirilir. Bağda becərilən bir sıra bitki növlərinə respublika ərazisinin heç bir yerində rast gəlinmir.

Çox keçmir ki, məkana daxil oluruq. Əvvəlcədən düşündüyümüz mənzərə ilə üz-üzəyik. Bağın möhtəşəmliyi, aurası insanı tam sakitləşdirir, zövqü oxşayır.

### 84 illik tarix

Hələ 1934-cü il iyunun 15-də Azərbaycan SSR Xalq Komissarları Soveti Bakı Sovetinə Nəbatat bağının salınması üçün vəsait ayrılmasını tapşırır. Beləliklə, həmin ilin ikinci yarısından bağın tikintisinə başlanılır və inşaat materialları almaq üçün maliyyə xərcləri ayrılır. Bağ üçün Bakının Dağüstü parkından (indiki Şəhidlər xiyabanı) "Qurd qapısı"na gedən yol arasında 80-100 hektar sahə ayrılması və sahənin su ilə təchiz edilməsi barədə qərar qəbul edilir. 1935-ci ildə Nəbatat bağının ilk direktoru Mixail Brjezitskinin rəhbərliyi ilə burada toxum, qələm, tinglərlə əkin işinə başlanılır.

1935-1938-ci illər ərzində bağda inzibati bina, oranjereyalar, istixanalar, emalatxanalar və təsərrüfat binalarının inşasına start verilir. Elə o vaxtdan etibarən bağın sahəsində Azərbaycan florasının, eləcə də ekzotexniki, dərman bitkilərinin kolleksiyasının yaradılması ilə yanaşı, onların üzərində elmi-tədqiqat işləri aparılır. 1937-1940-cı illərdə bağ üçün nəzərdə tutulan ərazidə neft quyularının qazılması ilə əlaqədar olaraq əsas sahə alınır və bağda yalnız 16 hektar qalır. 1960-cı ildə Ceyranbatan su anbarının tikilməsi və bağın su təchizatının yaxşılaşdırılması burada əkin və elmi-tədqiqat işlərinin genişləndirilməsinə imkan verir. Bağın mövcud sahəsinə yaxın olan 25 hektar yaşıllıq ərazisinin də bura verilməsi Nəbatat bağının ümumi sahəsinin



41 hektaradək artmasına səbəb olur.

### Yaşıl muzeyin ziyarətçiləri

İlin bütün fəsillərində şəhərimizin ən yüksək nöqtəsində, dəniz səviyyəsindən 105-135 metr hündürlükdə yerləşən Mərkəzi Nəbatat Bağında turistləri görmək olar. Bağda ziyarətçilərə kömək üçün bələdçilər fəaliyyət göstərir. Bununla yanaşı, ziyarətçilər onları maraqlandıran bitkilərin növü, cinsi və vətəni haqqında məlumatları Azərbaycan, rus və latın dillərində bitkilərin üzərindən asılmış lövhəciklərdən öyrənə bilərlər. Bu bağ yaşıl muzey olaraq biologiya elminin nailiyyətlərini və təbiəti mühafizə ideyasını əhali arasında təbliğ edir. Məktəblilər, tələbələr, xarici qonaqlar, respublikamızda fəaliyyət göstərən müxtəlif səfirliklərin və təşkilatların nümayəndələri, bir sözlə, təbiəti sevənlər bura daha çox üz tuturlar. Bağın ziyarətçilərə açıq olma müddəti isə mövsümlə əlaqədardır. Məsələn, qışda gün qısalır deyə bağa giriş üçün müddət az olur. Yayda isə 09:00-dan 20:00-dək bağ ziyarət edilə bilər. Hazırda isə bağ yay mövsümündədir.

### "Əsrin müqaviləsi", "Sarı gəlin", "Nazpəri"...

Bağı seyr etdikdən sonra "Çiçəkçilik" laboratoriyasının rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Asəf İsgəndərovla görüşüb söhbət edirik. 50 ildən çox bu bağda işləyən A.İsgəndərov deyir ki, "Çiçəkçilik" laboratoriyasında tədqiqat işləri əsasən qızılgül sortlarının introduksiyası və seleksiyası istiqamətində aparılır. 2006-cı ildən isə yeni qızılgül sortları yetişdirirlər.

Bir qızılgül sortunu almaq üçün 4-5 il vaxt lazım olur. Hazırda Nəbatat bağının kolleksiya sahələrində 575-ə yaxın qızılgül sortu var. Onlar arasında alimlərimizin yetişdirdiyi və Kənd Təsərrüfatı Nazirliyindən patent almış "Əsrin müqaviləsi", "Sarı gəlin", "Nazpəri" və digər qızılgül sortları mövcuddur. Başqa yeni sortların da patent alınması üçün dövlət komissiyasına təqdim edilməsinə hazırlıq işləri görülür. Xatırladaq ki, 2015-ci ilin may ayında Qafqazın ən böyük qızılgül kolleksiyalarından hesab edilən Mərkəzi Nəbatat Bağında "Qızılgül" sərgisi keçirilib və bu ənənə hər il davam etdirilir.

### Azərbaycanın zəngin florasını yaşadan məkan

Bağın direktoru vəzifəsini icra edən, biologiya üzrə fəlsəfə doktoru Vahid Fərzəliyev bildirir ki, Mərkəzi Nəbatat Bağı Qafqazda ən zəngin canlı bitki kolleksiyalarından biridir. Burada əsasən yerli və dünyanın müxtəlif botaniki-coğrafi rayonlarının florasından olan faydalı bitkilərin növ, forma və sortlarının introduksiyası istiqamətində elmi-tədqiqat işləri aparılır. Dünyanın müxtəlif ölkələrinin 100-dən artıq nəbatat bağı ilə toxum mübadiləsi aparılır. Hazırda aparılan mübadilə işlərinin hesabına bağın kolleksiya fonduna yeni-yeni ağac, kol və çiçək bitkiləri introduksiya olunur. Onların üzərində müşahidələr aparılır, bioloji və ekoloji xüsusiyyətləri öyrənilir.

Azərbaycan florasında yabanı halda 4560-a yaxın bitki növünə rast gəlinir ki, bunlardan 435-dən artıq növü ağac və kol bitkiləridir. Bu bitki növləri içərisində onlarca növün nəsli kəsilmək təhlükəsi altında olduğu müəyyən edilib. Əksəriyyəti yeyilən, dərman, dekorativ əhəmiyyəti olan bitkilərin sistemsiz istifadəsi onların getdikcə tükənməsinə səbəb olur. Bu baxımdan nadir və nəsli kəsilmək təhlükəsində olan bitkilərin kolleksiya sahələrində mühafizəsinə və artırılmasına xüsusi fikir verilir. Həmçinin bağın alimləri tərəfindən alınan innovativ bitki sortlarının populyarlaşdırılması məqsədilə onların kütləvi şəkildə çoxaldılmasına başlanıb.

### Nəbatat bağının qaydaları...

Bağda nizam-intizam və davranış qaydalarına əməl olunması çox vacibdir. Burada bitkiləri və gülləri qırmaq, od qalamaq, topla oynamaq, velosiped sürmək, heyvan gəzdirmək, eksperimental təcrübə sahələrinə daxil olmaq və bitkilərə toxunmaq qadağandır. Bağda həmçinin piknik də keçirməyə icazə verilmir.

3000-ə qədər mövcud olan yaşıllıqların su təminatı ən aktual məsələlərdən biridir. V.Fərzəliyev deyir ki, burada keçən ildən başlayaraq suya qənaət məqsədilə bir sıra ərazilərdə damla suvarması üsulu tətbiq edilib. Bu üsulla həm suya qənaət edilir, həm də məhsuldarlıq artır. Eyni zamanda, avtomatlaşdırılmış suvarma hesabına əl əməyi də azalır və yüngülləşdirilir.

Bu gün dünyada bitkilərin qorunmasında nəbatat bağlarının mühüm rolu nəzərə alınaraq onların sayının çoxaldılmasına və sahəsinin artırılmasına xüsusi diqqət yetirilir. İnsan təbiətin və onu əhatə edən ətraf mühitin qayğısına qalmalı, onun gözəlliklərini duyub, hiss etməlidir. Necə deyərlər, bu təbiət bizimdir, qədrini bilək, qoruyaq...

***Səbinə MƏMMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Xalqın bağrından qopan nəfəs

Bulaqların şırıltısıdır, yarpaqların pıçıltısıdır, xəzəllərin xışıltısıdır şeir. Şeir çayda güzgülənən ay işığının səsidir... Gözlərimizin önündə, yan-yörəmizdə minlərlə bu cür səslər dolaşır ki, onları sayıb qurtarmaq da mümkün deyil. Bu səslərin sirri ondadı ki, onları hamı eşitmir. Hər səsin arxasında bir nəfəs durur. Bu nəfəslər ya haqqın, ya da xalqın bağrından qopur.



Səksən il bundan öncə qədim Azərbaycan torpağı olan Göyçənin bağrından bir körpə nəfəs qopdu. Onun adını Əli qoydular. Əlinin qəlbində anadangəlmə bir vətən sevgisi vardı. Bu sevgi şair Əli Vəkilin xəyallarının qanadında Təbrizi, Urmiyanı, Dərbəndi, Borçalını, İrəvanı, Zəngəzuru, Naxçıvanı, Bakını, Gəncəni, Bərdəni, Şuşanı - bütün Qarabağı, Mili, Muğanı, Şirvanı dolaşdı. Bu sərhədlər də Əli Vəkilin vətən sevgisinə dar gəldi. Şair qollarını açıb Türkiyəni, Orta Asiyanı, Volqaboyunu, Sibiri qucaqladı və sözlə bütöv bir Turan xəritəsini yaratdı.

Əli Vəkil Göyçənin, İrəvanın, Zəngəzurun Azərbaycandan ayrıldığını duyunca onun qəlbində bir vətən dərdi, yurd həsrəti cücərdi. Şairin bu dərdlə, bu həsrətlə qovrulan qəlbi *"Bölünməmiş torpaq hanı? Əkəm dərdimi-dərdimi"* misralarını pıçıldadı. Bunlar Azərbaycan torpaqlarının parça-parça bölündüyünü, tala-tala olub onun-bunun tapdağı altında qaldığını duyan şairin qəlbinin harayıydı. Əli Vəkil "fillər çəkəmməyən" dərdini əkməyə bölünməmiş torpaq axtarır, yəni düşmən tapdağı altında qalmış torpaqlara dərdini də əkmək istəmir və bununla "o torpaqları düşmənlərdən alıb birləşdirin, bütövləşdirin ki, mən ona öz dərdimi əkim" deyir. Şair yaxşı bilir, yaxud Tanrı qulağına pıçıldayır ki, yalnız bu halda onun dərd əkdiyi vətən torpağında sevinc göyərəcək. Vətən torpağı nə qədər ki parça-parçadır, ona sevinc də əksən, qəm dərəcəksən.

Qarabağın qara taleyi Əli Vəkilin dərdinin üstünə dərd qalaqladı. Qarabağın işğalından sonra erməniləri yaxşı tanıyan, onların bütün murdarlıqlarına, zalımlıqlarına, qaniçənliklərinə çoxdan bələd olan şairin qəlbində şimşəklər çaxdı, ürəyi dəmirçi körüyü kimi od püskürdü. Ancaq Qarabağdakı talanları, ölüm-itimləri, qan-qadaları görüb ruhdan düşmədi, ümidini itirmədi, qələmini bir az da itiləyib bütün gücünü sözə verdi:

*Dünya fırlandıqca başlar fırlanır,*
*Gör neçə sapandda daşlar fırlanır.*
*Qurunun başına yaşlar fırlanır,*
*Doğma Qarabağda talana bax-bax.*

Əli Vəkilin "Göyçə bənövşəsi" şeirinin maraqlı yazılma tarixçəsi var. Dostumuz Əlövsət Ağalarov Kəlbəcərin ağır günlərində onun harayına gedir, ürəyi durmur, oradan Göyçə tərəfə adlayıb bir dəstə bənövşə yığır. Onu Bakıya gətirib Əli Vəkilə verir və Göyçə ətirli bir dəstə bənövşə şairin neçə illərdi həsrət yanğısıyla sızım-sızım sızıldayan yaralarının qaysağını qoparır. İndi gəl Göyçə həsrətilə yanan ürəyin sızıltılarına döz görüm necə dözürsən?! Burada ürəyi sözdən başqa heç nəylə ovutmaq olmur:

*Təzə-tər olardın yaz havasıyla,*
*Yuxuya dalardın saz havasıyla.*
*Qoşma havasıyla, söz havasıyla*
*İndi qəm sazını çalan bənövşəm.*

Bu qoşmanın bütün misraları Əli Vəkil yaradıcılığının mayasına, ruhuna, iliyinəqanına hopmuş vətən sevgisiylə yoğrulmuşdur.

Aşıq Ələsgər deyirdi ki, ustadına kəm baxanın gözünə ağ damar. Əli Vəkilin ürəyindəki vətən sevgisi o qədər güclüdür ki, onun bütün şeirlərinin hər bir misrasının altından bu sevgi boy göstərir. Bu sevgi şairin qəlbini dilləndirir ki, vətəninə, yurduna, elinə, obasına xor baxanın ömrü bay ola bilməz. Ona görə yazır ki: *"Bu yurdu müqəddəs say, Əli Vəkil, yoxsa ürəyində od olmaz-olmaz"*. Hər bir yaradıcı insanın ürəyi öz odunu doğma vətənindən, torpağından, elindən, obasından alır. Bu odla qürbət odunun doğma anayla ögey ana qucağının istisi qədər fərqi var. Bəzən ögey ana qucağının istisi adamı üşütdüyü kimi, qürbətin odu adamı qızdırmaq əvəzinə yandırır. Qürbətdə nə qədər varın-dövlətin olsa da, günün xoş keçsə də, vüqarın qürurun olmur, həmişə qəlbisınıq gəzirsən. Əli Vəkil də bunu duyduğuna görə yazır ki, *"Elə bil ki, çatışmayır hava da, qürbətdə vətənsiz yaşamaq olmur"* və yaxud *"Ay Əli, vüqarın Azərbaycandır, nə şöhrət, nə də ki, var istər könlüm!"*

İnsan yanında olanı heç vaxt nə xatırlamaz, nə axtarmaz, nə də soraqlamaz. Bunlar uzaqda olanlara - göz görməyənlərə, əl çatmayanlara, ün yetməyənlərə aiddir. Əli Vəkil haqqı, ədaləti, namusu, isməti, sədaqəti ona görə soraqlayır ki, onlar günbəgün bizdən uzaqlaşır, ilğım kimi əlçatmaz, ünyetməz olur. Onun "Sorağındayam" qoşması məhz bu duyğularla yoğrulmuşdur. Bütün bu işlərə dünyanın nə qədər soyuqqanlı olduğunu görən şair "Nə vecinə" gəraylısında ürəyini ağrıdan həmin hisləri, duyğuları qələmə almışdır:

*Birinin başında tacdı,*
*Biri çörəyə möhtacdı.*
*Kimlər toxdu, kimlər acdı,*
*Bu dünyanın nə vecinə.*

Şair burada dünya deyəndə, sözsüz ki, onu dağıda-dağıda, talaya-talaya acların aclığına, lütlərin lütlüyünə baxmadan var-dövlət toplayanları nəzərdə tutur. Dünyanı gözəlləşdirən insanlardır. Onun bütün çirkinliklərini, eybəcərliklərini də insanlar yaradırlar. Ona görə də dünyanın poetik obrazının arxasında həmişə canlı insan dayanır.

Əli Vəkilin zəngin poetik irsi var. Onun bir-birindən gözəl məhəbbət şeirlərini yaradıcılığının təzə-tər gülləri adlandırmaq olar. Bu şeirlərin hamısı milli ruhun pıçıltıları olduğuna görə abırlı-həyalıdır və oxuyanlara xoş təsir bağışlayır. Sevginin saflığı, ülviliyi bu şeirlərin ruhuna hopmuş başlıca duyğulardır. Əli Vəkilin vətənpərvərlik şeirləri kimi, sevgi şeirlərini oxuyanda da onların bir Azərbaycan şairinin qələmindən çıxdığını, bir türk qəlbinin pıçıltıları olduğunu o saat duyursan.

Əli Vəkilin ilhamı öz mayasını xalq yaradıcılığından almış, ürəyi saz havaları üstündə köklənmişdir. Ona görə də onun poeziyasında xalq ruhu çox güclüdür, şeirlərinin bu ruhla yoğrulduğu aydınca görünür.

Əli Vəkilin yaradıcılığının böyük bir hissəsini onun poemaları təşkil edir. Poema yaradıcılığı şairin poetik imkanlarının genişliyinin təsdiqidir. Onun "Ramiz sənətinin sehri", "Ellərin İsgəndəri", "Çal, ay ustad", "Əbədi dünya", "Ömür karvanı", "Kişi ömrü" poemalarının hər biri ayrı-ayrı mövzularda böyük istedadla yazılmış əsərlərdir. Onların hər biri haqqında ayrıca danışmaq olar.

Dünyanın gəldi-gedər olduğunu gözəl bilir Əli Vəkil. Onu da gözəl bilir ki, bu gəldi-gedər dünyada gəldi-gedər olmayan, nəsildən-nəslə yadigar qalan bircə şey var - o da yaratdıqlarındır. Səməd Vurğun gözəl demişdir ki, "De gəlsin hər nəyin vardır, deyilən söz yadigardır". Əli Vəkil də zəngin bir xəzinə yaradıb və yaratdıqları həm də gələcək nəsillərə yadigardır.

***İslam SADIQ,***
***şair, filologiya elmləri doktoru***

# BMX üzrə dünya çempionatının keçici bayrağı Belçikanın nümayəndəsinə təqdim olunub

İyunun 9-da Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı çərçivəsində yarışın keçici bayrağı növbəti mundiala evsahibliyi edəcək Belçika nümayəndəsinə təqdim olunub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov keçici bayrağı Belçikada təşkil olunacaq dünya çempionatının təşkilatçısı Jef Simonsa təqdim edib.

Beynəlxalq Velosipedçilər İttifaqının BMX komissiyasının və İttifaqın idarə heyətinin üzvü Artur Lopes də mərasimə qatılıb.

Velosiped idmanının BMX növü üzrə növbəti dünya çempionatı 2019-cu ildə Belçikanın Heusden-Zolder şəhərində keçiriləcək.

# Ermənistanla təmas xəttində yerləşən kənd sakinlərinin təhlükəsizliyi təmin edilir

Ermənistanla 168 kilometr sərhədi olan Qazax rayonunun 7 kəndi 25 ildən çoxdur ki, işğal altındadır. Təmas xəttində yerləşən 5 kənd isə daim düşmən atəşinə məruz qalır. Bu kəndlərdən düşmənə ən yaxın olanı Məzəmdir.

65 evdən ibarət olan kənd Dağlıq Qarabağ müharibəsi başlayandan 8 şəhid verib. Onlardan 4-ü hərbçi, 4-ü mülki vətəndaşdır. 1 nəfər kənd sakini - Mərifət Nəsibov Azərbaycanın Milli Qəhrəmanıdır.

Məzəm təcavüzkarların atəş nöqtəsinə ən yaxın məsafədə yerləşdiyindən elan olunmamış müharibənin ağrı-acılarını bu gün də yaşayır. Buradakı evlərin əksəriyyətinin üstündə güllə izləri var. Kəndin pərakəndə halda yerləşən yaşayış evlərinin divarları, qapı və pəncərələri düşmən güllələrindən deşik-deşikdir. Hazırda kəndin ətrafında düşmənin 6 yerdə atəş nöqtəsi var. 25 ildən çoxdur ki, ermənilər bu nöqtələrdən kəndi atəşə tuturlar.

Düşmənin yaratdığı təhlükəni dəf etmək üçün keçən il Məzəmdə 24 evin qarşısına istinad divarı çəkilmişdir. 603 poqonmetr uzunluğunda olan bu daş hasarlar kənd sakinlərini düşmənin atdığı güllələrdən qoruyur.

Bir müddət əvvəl Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov kənddə olarkən sakinlər görülən işlərdən olduqca razı qaldıqlarını bildirmiş və istinad divarlarının bir qədər də uzadılmasını xahiş etmişlər. Təhlükə altında olan evlərə baxış keçirildikdən sonra kəndin daha 13 evinin qarşısına müdafiə hasarlarının çəkilməsi üçün aidiyyəti təşkilatlara tapşırıqlar verilmişdir.

Hazırda həmin evlərin qarşısında hündürlüyü 3 metr, uzunluğu 258 metr olacaq istinad divarının çəkilişinə başlanılmışdır. Görülən işləri nəzərdən keçirmək üçün bu günlərdə rayon rəhbərliyi yenidən kənddə olmuş, sakinlərin problemləri ilə maraqlanmışdır. Kənd sakinləri Vüqar Nəsibov, Rafiq Məmmədov, Variz Məmmədov təhlükəsizliklərinin təmin edilməsi üçün görülən işlərdən razı qaldıqlarını bildirmişlər...

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Mingəçevirə şöhrət gətirənlər

## Kür Olimpiya Tədris İdman Mərkəzi yeni mövsümə hazırdır



Ölkənin ən böyük elektrik enerjisi təminatçısı olan Mingəçevir həm də böyük turizm potensialına malikdir. Nur şəhərinin yerləşdiyi coğrafi ərazi təbiəti, ekologiyası, tarixi abidələri, al-əlvan parkları, gözəl seyrəngahları ilə kifayət qədər cəlbedicidir.

Mingəçevirin regionda turizm mərkəzinə çevrilməsində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin də müstəsna rolu var. Qara qızılla şöhrət qazanan Azərbaycan bu gün dünyada həm də idman ölkəsi kimi tanınır. Bir sıra beynəlxalq idman yarışlarına uğurla evsahibliyi edən Azərbaycanda idmanın maddi-texniki bazası dövlətin qayğısı ilə ildən-ilə daha da möhkəmlənir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Mingəçevir avarçəkmə bazası Avropa standartları səviyyəsində əsaslı şəkildə yenidən qurulmuşdur. 2010-cu ilin 14 oktyabrında istifadəyə verilən "Kür" Olimpiya Tədris İdman Mərkəzinin ümumi sahəsi 7,2 hektarı əhatə edir. Avropada, o cümlədən MDB məkanında bənzəri olmayan bu müasir baza beynəlxalq avarçəkmə təşkilatlarında böyük maraq doğurub. Bazanın fərqli özəl xüsusiyyətlərindən biri də odur ki, Kür çayı qış aylarında donmadığı üçün ilin bütün fəsillərində dünyanın müxtəlif ölkələrindən olan idmançılar burada rahat məşqlər edir, ustalıqlarını artırırlar. Mərkəz əsasən ikimərtəbəli inzibati binadan, 7 zolaqlı üzgüçülük hovuzundan, altımərtəbəli, 250 yerlik dördulduzlu mehmanxanadan ibarətdir. Bundan əlavə, mərkəzdə bir kotec, tamaşaçı tutumu 500 nəfər olan idman zalı, tamaşaçı tutumu 280 nəfər olan üzgüçülük kompleksi, 2 tennis kortu, trenajor zalı və s. vardır.

Nur şəhərinin sakinləri 2015-ci il Avropa Oyunlarının Mingəçevirdə keçirilən yarışlarını bu gün də xoş duyğularla xatırlayırlar. Avropa ölkələrindən olan 350 nəfər avarçəkən öz güclərini məhz Kür çayında sınadılar. Burada keçirilən kayak və kayak konoe üzrə avarçəkmə yarışlarında azərbaycanlı idmançı Valentin Dimyaninko konoedə 2000 metrlik məsafədə gümüş medal qazandı.

Kür Olimpiya Tədris İdman Mərkəzində hər ilin yazında ənənəvi olaraq avarçəkmə üzrə beynəlxalq Prezident kuboku, payızında beynəlxalq Mingəçevir reqatası keçirilir. Bu il mart ayının 22-dən 25-dək keçirilən avarçəkmə üzrə Prezident kuboku yarışlarında Azərbaycan, Rusiya, Almaniya, Gürcüstan və İran yığma komandaları iştirak etmişlər. Akademik avarçəkmə üzrə 2000 metrlik məsafədə "Kür"ün yetirməsi Cavidan Şirinov 2-ci yeri qazanmışdır. İki nəfərlik qayıqda 18 yaşlılar arasında 2000 metrlik məsafədəki yarışda isə həmyerlilərimiz Ziya Məmmədov və Vlad Nakoneçnı birinci olmuşlar.

Bu günlərdə Milli Avarçəkmə Federasiyası şad bir xəbər almışdır. 1-3 iyun 2018-ci il Rusiya Federasıiyasının paytaxtı Moskva şəhərində keçirilmiş "Böyük Moskva" reqatasında həmyerlimiz Cavidan Şirinov (2000 metrik məsafədə) gümüş medal qazanmışdır. İki nəfərlik qayıqda isə Ziya Məmmədov və Vlad Nakoneçnı uğurlu çıxışlar etmişlər.

Kür Olimpiya Tədris İdman Mərkəzi MMC-nin baş direktoru, Azərbaycan Milli Avarçəkmə Federasiyasının vitse-prezidenti Natiq Abbasov söhbət zamanı dedi:

- Azərbaycan dünyada inkişaf etmiş idman ölkəsi kimi böyük şöhrət qazanmışdır. Qazanılan böyük nailiyyətlərdə avarçəkənlərimizin də sanballı payının olması bizə qürur verir. Kür Olimpiya Tədris İdman Mərkəzinin Avropa standartları səviyyəsində əsaslı şəkildə yenidən qurulması birmənalı şəkildə Prezident İlham Əliyevin idmana verdiyi böyük önəmin məntiqi göstəricisidir. Mərkəzdə idmançılar, qonaqlar, tamaşaçılar üçün yaradılmış ideal şərait hər kəsi razı salır. Dövlət səviyyəsində əhatə olunduğumuz qayğı və diqqəti minnətdarlıqla qarşılayırıq. Bizə göstərilən isti münasibət məsuliyyətimizi də birə yüz artırır. Bütün qüvvə və bacarığımızı səfərbər edərək çalışırıq ki, doğma Azərbaycanımızın şöhrətini daha da artıraq, beynəlxalq yarışlarda üçrəngli bayrağımızın qaldırılmasına, dövlət himnimizin səsləndirilməsinə nail olaq. Avarçəkənlərimizi qarşıda ciddi sınaqlar gözləyir. Mirnazim Cavadov hazırda Serbiyada keçirilən Avropa çempionatında iştirak edir. Bu ilin avqust ayında Şotlandiyanın Qlazqa şəhərində keçiriləcək akademik avarçəkmə üzrə Avropa çempionatından da heç şübhəsiz, medallarla qayıdacağıq.

Natiq Abbasov axırda bildirdi ki, kayak və konoye idman növü üzrə yeniyetmələrin yığma komandası yaxın günlərdə Ukraynanın Xerson şəhərində 40 günlük təlim-məşq toplanışına yola düşəcəkdir. "Kür" Olimpiya Tədris İdman Mərkəzində avarçəkmə ilə yanaşı, idmanın gimnastika, güləş, üzgüçülük və mini-futbol bölmələri də fəaliyyət göstərir. Burada gənc və yeniyetmələr asudə vaxtlarını mənalı keçirir, sağlam və gümrah böyüyür, eyni zamanda, vətənin idman şöhrətini artırmaq uğrunda vüsət alan mübarizənin potensial iştirakçısına çevrilirlər.

***Lazım QULİYEV, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# Beynəlxalq aləm

HADİSƏLƏR, FAKTLAR

## Səudiyyə Ərəbistanı neft hasilatını artırdı



Səudiyyə Ərəbistanı ötən ay neft hasilatını gündə 100 min barel artırmışdır. Gəmiləri izləməklə məşğul olan "Kpler" şirkətinin məlumatına görə, dünya bazarına gündə əlavə olaraq 300 min barel "qara qızıl" daxil olmuşdur.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp keçən ayın 8-də Vaşinqtonun İranla altı beynəlxalq müşahidəçinin (ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Çin və Almaniya) nüvə proqramı barədə imzaladığı sazişdən çıxdığını elan etmişdir. Tramp həmçinin İrana qarşı bütün sanksiyaların bərpa olunacağını bəyan etmişdir ki, bu da ölkənin neft sektoruna mənfi təsir göstərə bilər.

Eyni zamanda, KİV ötən həftə xəbər vermişdir ki, Vaşinqton nüvə sazişindən çıxdıqdan bir gün əvvəl ABŞ hökuməti Səudiyyə Ərəbistanından və OPEC-in üzvü olan bir neçə digər ölkədən neft hasilatının gündə 1 milyon barel artırmağı xahiş etmişdir. Məqsəd dünya neft bazarında sabitliyi qoruyub saxlamaqdır.

Səudiyyə Ərəbistanında neft hasilatının artması OPEC-in iştirakçısı olan 24 ölkənin hamısının bu ayın 23-də Vyanada keçiriləcək iclası ərəfəsində müşahidə edilir. Gözlənildiyinə görə, iclasda 2016-cı ilin axırlarında bağlanmış Vyana sazişi çərçivəsində hasilatın azaldılması məsələsinə baxılacaq. O vaxt OPEC və təşkilata daxil olmayan bir sıra ölkələrlə neft hasilatının 2016-cı ilin oktyabrı səviyyəsindən gündə 1,8 milyon barel azaldılması barədə razılığa gəlmişdir. Saziş 2017-ci ilin əvvəlində start götürmüş və iki dəfə, sonuncu dəfə 2018-ci ilin axırınadək uzaldılmışdır.

## Tramp Belarus məmurlarına qarşı sanksiyaların müddətini uzatdı



ABŞ Prezidenti Donald Tramp Belarus hakimiyyətinin bəzi nümayəndələrinə münasibətdə sanksiyaların müddətini bir il uzatmışdır. Bu barədə Ağ evin saytı məlumat vermişdir.

Trampın müvafiq fərmanında deyilir ki, "Belarus hökumətinin bir sıra nüaməyəndələrinin hərəkətləri və davranışı ABŞ-ın milli təhlükəsizliyinə və xarici siyasətinə fövqəladə təhdid yaratmaqda davam edir". Vaşinqton hesab edir ki, Belarusda insan hüquqları hələ də pozulur, hakimiyyət isə korrupsiya sxemlərinə cəlb olunmuşdur.

Xatırladaq ki, Belarus hökumətinə qarşı sanksiyalar barədə fərmanı ilk dəfə 2006-cı ildə Corc Buş vermişdir. ABŞ-ın eks-prezidenti Belarus Prezidenti Aleksandr Lukaşenkonun, həmçinin bəzi yüksək vəzifəli məmurların maliyyə hesablarını həbs etmək barədə sərəncam vermişdir. Sanksiyalar Belarusda keçirilmiş prezident seçkiləri ilə əlaqədar tətbiq olunmuşdur. ABŞ və Avropa İttifaqı həmin seçkiləri qeyri-demokratik hesab edirdi.

## "Taliban" Əfqanıstan hökumətinin barışıq təklifini qəbul etdi



"Taliban" hərəkatı Əfqanıstan hökumətinin ardınca Ramazan bayramı münasibətilə barışıq elan etmişdir. Bu barədə yerli KİV xəbər verir.

"Taliban" həmçinin Ramazan bayramından qabaq üç gün ərzində atəşi dayandıracağını bildirmişdir.

Qeyd edək ki, Əfqanıstan Prezidenti Əşrəf Qani üç gün əvvəl orucluğun başa çatması və Ramazan bayramı münasibətilə taliblərlə müvəqqəti barışıq elan etmişdir. Barışıq iyunun 11-dən 19-dək davam edəcək.

## Salvadorun eks-prezidentinin həbsinə order verildi



Salvadorun Baş Prokurorluğu ölkənin eks-prezidenti Maurisio Funesin həbsinə order vermişdir. Sabiq dövlət başçısı büdcə vəsaitini mənimsəməkdə və çirkli pul yumaqda ittiham edilir.

"Prensa Grafica" portalının məlumatına görə, Funesin beşillik prezidentliyi dövründə dövlət büdcəsindən 350 milyon dollardan çox pul oğurlanmışdır. Həmin pul eks-prezidentlə bu və ya digər şəkildə əlaqəli olan bank hesablarına köçürülmüşdür.

Qeyd edək ki, ötən ilin axırlarında Funes və onun oğlu Dieqo qanunsuz yolla varlanmaqda ittiham olunmuşlar. Funes 2016-cı ilin sentyabrında Nikaraquada sığınacaq almışdır. Həmin ilin fevralında Salvador Ali Məhkəməsi Funesə münasibətdə mülki iş qaldımışdır. Funes 2009-2014-cü illərdə Salvadorun prezident vəzifəsini tutmuşdur.

# Azərbaycanın ən yaxşı startapı seçildi

## Qalib 1 milyon ABŞ dolları qazanmaq şansı əldə etdi



"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı və PAŞA Bankın, Patent və Əmtəə Nişanları Mərkəzinin, İsveçrənin Azərbaycandakı səfirliyinin, eləcə də ADA universitetinin dəstəyi ilə ölkəmizdə 6-cı dəfə təşkil olunan Seedstars World müsabiqəsinin qalibi bəlli olub. İyunun 8-də ADA Universitetində baş tutan final mərhələsində münsiflər heyəti tərəfindən seçilən 10 yerli startap öz layihələrini təqdim edərək Azərbaycanın ən yaxşı startapı adı uğrunda mübarizə aparıblar. Qaydalara əsasən müsabiqəyə 2 ildən daha az müddətdə fəaliyyət göstərən, real məhsulu, həmçinin regional və qlobal böyümə potensialı olan startaplar qoşula bilərdilər. Beləliklə, münsiflərin səs verməsi ilə Elçin Əsgərovun "Onbranch" layihəsi innovativ dayanıqlı həllinə görə Azərbaycanın ən yaxşı startapı adına layiq görülüb."Tap2Doc" layihəsi ilə Ceyhun Cəfərov 2-ci yerin qalibi, "Owbike" layihəsi ilə isə Həsənağa Azad 3-cü yerin qalibi olublar.

Mükafatın bir hissəsi olaraq, "Onbranch" layihəsi 2019-cu ilin aprelində İsveçrədə keçiriləcək beynəlxalq Seedstars sammitində iştirak edəcək. Bir həftə davam edəcək təlim proqramı zamanı startapımızın dünyanın inkişaf etməkdə olan 65-dən çox ölkəsinin qalibləri ilə, həmçinin investor və mentorlarla görüşmək imkanı olacaq. Sammitin son günündə yerli qaliblər 1000 nəfərlik auditoriya qarşısında layihələrini təqdim edəcəklər və 1 milyon ABŞ dolları həcmində investisiya uğrunda yarışacaqlar.

İnkişaf etməkdə olan və sürətlə böyüyən bazarlara dünya turunu davam etdirən Seedstars World-un növbəti dayanacağı Qazaxıstanın Astana şəhəridir. Seedstars regional məsələlərin həllini hədəfləyən və onların regional bizneslərinə və inkişafına dəstək vermək məqsədilə qlobal bazar üçün gəlirli və davamlı məhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. Seedstars World inkişaf etməkdə olan bazarlarda keçirilən dünyanın ən böyük startap yarışmasıdır. Tədbirin keçirilməsində Seedstarsın məqsədi inkişaf edən ölkələrdə mövcud olan, xüsusilə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun həllər istiqamətində fəaliyyət göstərən sahibkarları üzə çıxarmaqdır.

***"Azərbaycan"***

# Əmlak Məsələləri Dövlət Komitəsinin sədri İsmayıllıda vətəndaş qəbulu keçirib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin regionlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov iyunun 9-da İsmayıllıda vətəndaş qəbulu keçirib. Komitənin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda İsmayıllı rayonu ilə yanaşı, Qəbələ, Oğuz rayonlarından olan sakinlərin də müraciətləri dinlənilib.

Komitə sədri vətəndaşların diqqətinə çatdırıb ki, torpaqların mükəmməl kadastr uçotunun formalaşdırılması, torpaqların elmi əsaslarla idarə edilməsinə, ölkənin torpaq balansının dəqiqləşdirilməsinə, vahid torpaq bazasının yaradılmasına zəmin yaradır.

Müraciətlər əsasən torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi, vaxtilə verilmiş pay torpaqları ilə bağlı faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması, o cümlədən torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları ilə əlaqədar olub. Daşınmaz əmlakın qeydiyyatı, özəlləşdirmə sahəsinə də aid müraciətlər ünvanlanıb.

Qəbul zamanı vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir çoxu yerində həllini tapıb. Hər bir vətəndaşın müraciətinə diqqətlə yanaşan komitə sədri Kərəm Həsənov müraciətlərin dəqiqliklə araşdırılması və qaldırılan məsələlərin həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Eyni zamanda, vətəndaşların müxtəlif təklifləri qeydə alınıb. Bir qisim müraciətlər operativ araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

# Artezianlar torpağa can verir

Son illər su təsərrüfatı və meliorasiya işçilərinin üzərinə düşən vəzifələr xeyli çoxalıb. Başqa sözlə, qeyri-neft sektorunun inkişafı, əkin dövriyyəsinə yeni torpaq sahələrinin cəlb olunması, üstəlik, əhalinin içməli suya olan tələbatının ödənilməsi. Bu tələbatın yerinə yetirilməsində Şəki Subartezian Quyularının İstismarı İdarəsi kollektivinin böyük əməyi var.



Xidmət sahələrinə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonları daxil olan idarənin rəisi Sabir Əhmədov deyir ki, Prezident İlham Əliyevin 2018-ci il martın 12-də imzaladığı "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamı kollektivin məsuliyyətini daha da artırıb: "Cari ildə iş daha çoxdur. Şəkidə 13, Zaqatalada 12, Balakəndə 9, Qəbələ və İsmayıllıda hər birində 8, Oğuzda 6, Qax rayonunda 13 subartezian quyusunun qazılması nəzərdə tutulub. Bütün bu işlər cari ilin sonuna kimi başa çatdırılmalıdır. Quyular adətən, kənd yerlərində qazılıb istifadəyə verilir ki, bu da kənd sakinlərinin həyətyanı sahədə məhsul yetişdirməsi üçün olduqca vacibdir".

Müsahibimiz qeyd etdi ki, ölkə ərazisində dövlət vəsaiti hesabına subartezian quyularının qazılması 2005-ci ildən başlanıb. 2013-cü ildən isə həmin proses dövlət başçısının müvafiq sərəncamları ilə ardıcıl şəkildə icra olunur: "2013-cü ildə Şəkidə və Zaqatala rayonlarının hər birində 4 quyu qazılıb. Növbəti il bu sahədə dinamik artım başlanıb. 2014-cü ildə Şəkidə və Zaqatalada hər birində 14 olmaqla 28, Qaxda 12 quyu qazılıb. Hazırda şimal-qərb bölgəsində 616 subartezian, 200 artezian quyusu var. Həmin mənbələr vasitəsilə 8369 hektar sahə suvarılır".

2013-2018-ci illərdə qazılan quyularla birlikdə Şəkidə 173, Zaqatalada 199, Balakəndə 47, Qaxda 120, İsmayıllıda 54, Oğuzda 32 və Qəbələdə 30 su mənbəyi mövcuddur. Həmin ərazidəki 183 min nəfər əhalinin içməli su təminatı bu mənbələr hesabına ödənilir.

***Əli SƏLİMOV, "Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8684
Sifariş 1679